**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**

**ELMİ-METODİKA ŞÖBƏSİ**




# *Gəlin, gələcəyimizi qoruyaq!*

**B A K I – 2015**

## Tərtibçidən

Müasir dünyada cəmiyyəti narahat edən problemlər içərisində ən mürəkkəbi, faciəvi nəticələrə gətirib çıxaranı narkomaniya və narkobiznesdir. Narkomaniya və narkobiznes təkcə insanların sağlamlığına, mənəviyyatına deyil, həm də dünya iqtisadiyyatına ciddi zərbə vurur. O, dünyada münaqişə və müharibə ocaqlarının, işğal və nəzarətsiz zonaların, nüvə bazalarının, terrorçu mərkəzlərin, mütəşəkkil cinayətkar qrupların yaradılması, silah alverinin güclənməsi sahəsində mühüm amil rolunu oynayır. Ən acınacaqlısı da budur ki, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik halları yüksələn xətlə artmağa doğru gedir. Narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. Problemin ictimai təhlükəliliyi isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və durmadan artır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir sıra problemlər kimi narkotizm probleminə qarşı mübarizə tədbirləri görülməsinin vacibliyi ön plana çıxmış, bir sözlə, problemə münasibətdə yeni mərhələ başlanmışdı. Şərti olaraq "yeni" adlandırdığımız bu mərhələnin ən uğurlu cəhəti ondan ibarətdir ki, narkotizmə qarşı mübarizədə dövlət orqanları ilə yanaşı ictimai təşkilatların fəaliyyəti üçün də lazımi şərait yaradılmışdı. Azərbaycan Respublikasında narkotizmlə və narkobiznеslə mübarizənin əsası, tarixdə ilk dəfə olaraq, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 18 iyun 1999-cu il tarixli Qanunu ilə qoyulmuşdur. Bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ayrı-ayrı dövlət strukturları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri (KİV), hüquq-mühafizə orqanları, təhsil və səhiyyə sistemi birgə mübarizə aparmaqla onun qismən də olsa yayılmasının və kütləvi hal almasının qarşısını ala bilər. Tərtib edilən bu vəsaitdə respublikada narkomaniyanın yayılmasına səbəb olan amillər, dövlət səviyyəsində narkomaniya və narkobiznesə qarşı mübarizədə həyata keçirilən tədbirlər, qəbul edilmiş dövlət sənədləri işıqlandırılmış, bu problemə qarşı mübarizədə uşaq kitabxanaları qarşısında duran vəzifələrdən, keçiriləcək tədbir formalarından, təbliğat işindən bəhs edilmişdir. İnanırıq ki, bu vəsait kitabxana işçilərinə narkomaniyaya qarşı mübarizədə bütün kitabxana işçiləri üçün dəyərli vəsait olmaqla yeniyetmələrin maariflənməsində yaxından köməklik edəcəkdir. Elmi metodik vəsaitdə F.Köçərli adına Respublika Uşaq kitabxanasının iş təcrübəsindən də istifadə olunmuşdur. Metodik vəsaitlə əlaqədar rəy, təklif və iradlarınızı kitabxanamızın elektron ünvanına göndərməyinizi xahiş edirik. Ünvan: AZ-1022 Bakı şəh., S.Vurğun küç. 122G e-mail: childlibbaku@yahoo.com

## GİRİŞ

“Narkomaniya” yunan sözü olub, narko - bihuşluq, maniya - isə asılılıq deməkdir. Narkomaniya cəmiyyətin meydana gəldiyi, onun ayrı-ayrı siniflərə, sosial təbəqə və qruplara bölündüyü qədim zamanlardan yaranmışdır. Hələ qədim dövrlərdə tiryəkdən bəzi xəstəliklərin müalicəsində istifadə olunmuşdur. Qədim misirlilər tiryəkdən həvəsləndirici, eləcə də sakitləşdirici vasitələrin hazırlanmasında istifadə etmişlər. Tiryəkdən ilk dərman XVI əsrdə alınmış və onu icad edən isveçrəli həkim Paraselsin şərəfinə adlandırılmışdır. Sonralar isə bunun zəhərli maddə kimi orqanizmə əks təsirini, ölümə səbəb olduğunu müəyyənləşdirmişlər. Avropa və Asiya qitələrində məskunlaşmış xalqların mifologiyasında yağlı xaşxaş insanların ağrı və əzablarının qənimi kimi qavranılmış, xaşxaş qozasından alınan şirə (tiryək) isə həmişə tibbi məqsədlər üçün istifadə edilmişdir. Tiryəkli preparatlar orta əsrlərdə təbabətdə geniş yayılmış, ondan hazırlanan dərmanlardan ruhi xəstələri sakitləşdirmək, əzabları azaltmaq, spazm və sarsıntıları, pozulmuş əsəb-sinir sistemini bərpa etmək kimi müalicə işlərində istifadə olunmuşdur. Artıq, getdikcə narkotik maddələrin hazırlanmasında, əkilib-becərilməsində xeyli təcrübə qazanmış insanlar müasir texnologiyalardan istifadə etməklə yeni uyuşdurucu maddələr istehsal edirdilər. XIX əsrin ortalarında narkomaniya tarixinin yeni bir dəhşətli mərhələsi narkotik maddələrin müasir üsulla - venadaxilinə yeridilməsi ilə başlanmışdır. Beləliklə, leksikona “narkotik”, “narkotik vasitələr” terminləri daxil olmuşdur. Narkotik - mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddədir. O toksik maddə olduğundan insanın bütün orqanizminə, ürək-damar sistemindən tutmuş, sinir sisteminə qədər mənfi təsir göstərərək, onun xarakterini dəyişir, xəstə özünü idarə edə bilmir. Orqanizm zəifləyir, bədən arıqlayır, insanın fiziki gücü tükənir. Bu da son nəticədə aqressivliyə, cinayətkarlığa və ölüm hallarına gətirib çıxarır. Uzun illərin araşdırmaları göstərir ki, narkomanlıq insanı həqiqətən də fiziki və ruhi cəhətdən şikəst edir, onun ömrünü qısaldır. Erkən yaşından narkotik qəbul etməyə başlayan insanın orta ömrü 35-40 il olur. Narkoman narkotik maddələr qəbul edərkən, ən azı 10-15 nəfəri də narkomanlığa cəlb edə bilər. BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” Bəyannaməsinə əsasən 26 iyun “Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə günü” kimi qeyd olunur. Ayrı-ayrı dövlətlər ildən-ilə narkotiklərin qanunsuz dövriyyəsi ilə səmərəli mübarizə üsullarını və narkomanlığın müalicə metodlarını təkmilləşdirmək və bu sahədə yeni mübarizə üsullarını kəşf etmək istiqamətində səylərini artırırlar. Fərdi şəkildə və ya beynəlxalq əməkdaşlıq çərçivəsində bu problemə qarşı birgə mübarizə aparılmasına baxmayaraq, dünya

üzrə narkomaniyaya düçar olanların sayı ildən-ilə artmaqdadır. Narkomaniya 12-17 yaş qrupu arasında daha geniş yayılmışdır. Narkotik istehsalına görə Əfqanıstan dünya ölkələri sırasında bu gün də "liderliyi" qoruyub saxlayır. Statistikaya əsasən Avropa Birliyi ölkələrində narkomanların sayı 742 minə yaxındır. MDB və Asiya ölkələri də Qərbdən geri qalmır. Burada təxminən 26 milyon adam narkotik vasitələrdən istifadə edir. Avropa və Asiya qitələrinin qovuşduğu ərazidə yerləşən Azərbaycan öz təbiəti, təbii sərvətləri etibarı ilə olduqca zəngin ölkədir. Ərazisinin çox geniş olmamasına baxmayaraq, Yer planetində mövcud olan 11 iqlim qurşağından 9-u ölkə ərazisindən keçir. Ona görə də bir gün ərzində respublikanın bir tərəfindən digər tərəfinə getməklə ölkə ərazisində səhra, yarımsəhra, mülayim, subtropik, kontinental və digər iqlim şəraitinə rast gəlmək olar. Məhz göstərilən iqlim şəraitləri ölkənin bütün bölgələrində narkotik tərkibli bitkilərin həm əkilib becərilməsinə, həm də belə bitkilərin yabanı halda bitməsinə şərait yaratmışdır. Məsələn, xaş- xaşın Qafqazda yayılmış 24 növündən 20-si Azərbaycanda bitir. Həmin 20 növdən 19-u həm də yabanı halda yetişir. Azərbaycanın geosiyasi mövqeyi narkotiklərin qeyri-qanuni olaraq Avropaya daşınması üçün də əlverişlidir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən və digər ölkələrlə iqtisadi əməkdaşlığı genişləndirdikdən sonra, kriminal strukturlar üçün narkotik vasitələrin yayılması, çirkli pulların təmizə çıxarılması üçün əlverişli şərait yaradılmışdı. Beynəlxalq narkosindikatlar Azərbaycanın əlverişli vəziyyətindən istifadə edərək onu narkotik vasitələrin Müstəqil Dövlətlər Birliyi ölkələrinə və Avropaya aparılmasında tranzit əraziyə çevirməyə cəhd etmişdilər. Həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bütün sahələrdə olduğu kimi, narkotiklərin ölkə ərazisində qanunsuz dövriyyəsinə də öz mənfi təsirini göstərmişdir. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının 20 faiz ərazisinin işğalı, Azərbaycanın İranla olan dövlət sərhəddinin 132 kilometrinə Ermənistan silahlı qüvvələri tərəfindən nəzarət edilməsi nəticəsində həmin sahədən Avropa və Qara dəniz hövzəsi ölkələrinə, həmçinin, digər dövlətlərə narkotik maddələrin güclü axını həyata keçirilir. Dağlıq Qarabağ ərazisi narkotik tranziti, narkotiklərin becərilməsi, satılması, transmilli cinayət üçün nəzarətsiz zona kimi istifadə olunur. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazisinin narkoişbazlar üçün cəlbedici olması ölkəmizdə bu istiqamətdə ciddi mübarizə aparılmasını tələb edir ki, bu da hər bir şəxsin öz sahəsində narkomaniya və narkobiznesə qarşı vicdanla mübarizə aparması nəticəsində mümkündür. Narkomaniya bəlası təkcə paytaxtımızla məhdudlaşmır. Ən ucqar əyalətlərimizdə belə bu bəlanın əlamətləri artmaqdadır. Statistik məlumatlara görə son illərdə respublikanın Cənub zonasında narkomanların sayı çoxalmağa başlamışdır. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin 2014-ci ilin iyul ayında verdiyi statistikaya əsasən Azərbaycanda təqribən 24

mindən çox narkoman qeydiyyata alınmış, onların təqribən 6 min nəfəri gənc, 70 faizi isə dispanser uçotundadır. Ancaq, ekspertlərin fikrincə, bu rəqəm gerçəkliyi əks etdirmir. Çünki, narkomanların heç də hamısı qeydiyyata düşmür. Əlbəttə, bir sıra başqa dövlətlərlə müqayisədə respublikamızda narkotizm o qədər də dəhşətli şəkil almamışdır. Lakin yaddan çıxartmamalıyıq ki, narkomanlıq yoluxucu xəstəlikdir, üstəlik də QİÇS-ə aparan bir yol kimi, gizli şəkildə, sürətlə yayılmaq xüsusiyyətlərinə malikdir. Ölkəmizdə narkotizmlə və narkobizneslə mübarizə onun ərazi bütövlüyünün, suverenliyinin bərpası, qorunub saxlanması və mühafizəsi, beynəlxalq terrorizmlə, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizənin həyata keçirilməsi zərurətindən irəli gəlir. Bu sahədə ölkədə lazım olan normativ-hüquqi baza, müvafiq təşkilati strukturlar yaradılmış və milli proqramlar hazırlanıb həyata keçirilmişdir. Bu gün bütün dünyada narkotizmin yayılmasının qarşısının alınmasında dünya dövlətləri BMT-nin qəbul etdiyi üç əsas Konvensiyanın (1961, 1971 və 1988-ci illər) ətrafında sıx birləşərək vahid mübarizə metodları hazırlamaqla bu dəhşətli bəlanın qarşısının alınmasında birgə səy nümayiş etdirirlər. Müstəqil Azərbaycan Respublikası artıq iyirmi ildən çoxdur ki, beynəlxalq ictimaiyyət və aparıcı dünya dövlətləri ilə birgə bu problemin həlli yolunda ardıcıl və məqsədyönlü addımlar atır. Bu illər ərzində Azərbaycanda narkomaniyanın qarşısının alınması sahəsində müxtəlif istiqamətli işlər həyata keçirilmişdir. Bunların bəzi mühüm məqamlarını göstərmək yerinə düşərdi. 1992-ci ildə Azərbaycan Respublikası BMT-yə tam hüquqlu üzv olduqdan sonra “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” BMT-nin 1988-ci il konvensiyasına qoşulmuşdur. Ümummilli lider Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 1996-cı il avqustun 26-da “Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında” müvafiq fərman imzalamış və problemin həlli üçün keçirilən tədbirlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu fərman əsasında ölkəmizdə 2000-ci ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlanmış, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin Yaxın və Orta Şərqdə Narkotiklərin Qanunsuz Dövriyyəsinə Nəzarət üzrə Yardımcı Komissiyasının 32-ci sessiyasında çıxış edərək Azərbaycan Respublikasının bu problemin həllində ardıcıl addımlar atacağını və dünya ictimaiyyəti ilə bu məsələdə bir yerdə olacağını bir daha bəyan etmişdir. 1998-ci ildə Azərbaycan Respublikası BMT-nin “Narkotik vasitələr haqqında” 1961-ci il və “Psixotrop maddələr haqqında” 1971-ci il Konvensiyalarına qoşulmuşdur. 1999-cu il iyun

ayının 18-də “Narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu Milli Məclisdə qəbul olunaraq ölkə başçısı tərəfindən imzalanmışdır. Bu qanunun başlıca əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanda narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazırlanması qanunla qadağan edilmişdir. Ulu öndərin 15 iyul 2000-ci il tarixli fərmanı ilə “2000-2006-cı ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin, psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə” Milli Proqram qəbul edilmişdir. Bu proqramın tələblərindən irəli gələn məsələlərin həlli, eləcə də aidiyyətli dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə xüsusi Dövlət Komissiyası yaradılmışdır. 2000-ci ildə Azərbaycan Respublikası Avropa Şurasına tam-hüquqlu üzv olduqdan sonra Avropa və dünya birliyinə inteqrasiya zəminində Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı ilə birgə “Cənubi Qafqazda Narkotiklərə Nəzarət” (SCAD) Regional Yardım Proqramı fəaliyyətə başlamışdır. 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən “Narkoloji xidmət və nəzarət haqqında” Qanun qəbul olunmuşdur. 2005-ci ildə görülən işlərin məntiqi davamı kimi beynəlxalq qurumların tövsiyələrinə, qoşulduğumuz Konvensiyaların müddəalarına uyğun olaraq “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanunu Milli Məclisdə qəbul olunmuş və Azərbaycan Respublikasının Prezidenti İlham 12 Əliyev cənabları tərəfindən imzalanmışdır. Prezident İlham Əliyevin 28 iyun 2005-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Qanun narkotiklərlə mübarizə istiqamətində müvafiq dövlət və ictimai qurumlar qarşısında konkret vəzifələr qoymuş və bu istiqamətdə fəaliyyətin hüquqi bazasını təşkil etmişdir. Qanunun başlıca əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanda narkotik vasitələrin və psixotrop maddələrin alınması, saxlanması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, istifadə edilməsi, onların dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazırlanması qanunla qadağan edilmişdir. Qanunun 9-cu maddəsində narkotik vasitələrin və ya psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzinin yaradılmasından, informasiya orqanlarının qarşısında qoyulan vəzifələrdən bəhs edilmişdir. Azərbaycan Respublikası ərazisində narkomaniya və narkobizneslə bağlı mübarizə sahəsində hüquqi məsələləri tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi, dəyişən şəraitə və tələblərə uyğunlaşdırılması hökumətin və dövlətin əsas fəaliyyət istiqamətlərindən biridir.

Qəbul olunan qanunun və normativ aktların məqsədi narkotiklərin dövriyyəsi ilə bağlı sosial, iqtisadi, hüquqi münasibətlərdə baş verən dəyişiklikləri özündə əks etdirməkdir. Bununla yanaşı, ölkədə hüquq-mühafizə orqanları səviyyəsində də narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı lazımi mübarizə aparılır. Azərbaycan hökuməti daima ölkə ərazisində narkomaniya və narkobiznesə qarşı mübarizədə uğurlar əldə etmək üçün bütün cavabdeh strukturların fəaliyyətinin əlaqələndirilməsinin başlıca meyar olduğunu qeyd edir. Ölkə başçısının 28 iyun 2007-ci il tarixli Sərancamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə uzrə Proqram"ın (2007-2012-ci illər) yerinə yetirilməsi istiqamətində Dövlət Komissiyasının işçi qrupunun müvafiq nazirlik, komitə və təşkilatlarla birgə gördüyü işlər çox əhəmiyyətlidir. Bunun üçün Təhsil, Gənclər və İdman nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidməti, Milli Elmlər Akademiyası, Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirlikləri və digər qurumlar birgə fəalliyyət göstərməli, müalicə və reabilitasiya sahəsində profilaktik tədbirlərin səmərəsini artırmalıdırlar. Yalnız bu təqdirdə narkomaniya və narkobizneslə məşğul olan ayrı-ayrı şəxslərin, dəstələrin vaxtında ifşa olunmasında, onlara qarşı lazımi profilaktik tədbirlərin həyata keçirilməsində müvəffəqiyyət əldə etmək mümkündür. Narkotizmlə və narkobizneslə mübarizədə regional və beynəlxalq əlaqələrin genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsi səmərəli addımlardan biri hesab olunur. Belə əlaqələrin və əməkdaşlığın qloballaşması ilk növbədə müvafiq ölkənin özünün, bilavasitə, milli təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir. Ona görə də milli təhlükəsizliyin təmin olunmasında narkomanlığın, eləcə də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması və belə təzahürlərin aradan qaldırılması sahəsinda həyata keçirilən tədbirlər əsas yerlərdən birini tutur. Bakıda 2011-ci il 17 oktyabr tarixində "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda keçirilmiş ikigünlük beynəlxalq konfrans, bu baxımdan, çox böyük əhəmiyyət kəsb etmişdir. Dünya Gömrük Təşkilatının (DGT) və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı, BMT-nin dəstəyi ilə keçirilən konfransda 42 ölkənin müvafiq qurumlarının, 7 beynəlxalq təşkilatın 87-dən çox nümayəndəsi iştirak etmişdi. Tədbirdə müstəqilliyimizin bərpasından ötən 20 il ərzində Azərbaycanda narkotik vasitələ- rin qanunsuz dövriyyəsinə qarşı mübarizənin həmişə diqqət mərkəzində olması, narkotiklərlə mübarizə sahəsində təkmilləşdirilmiş normativ hüquqi bazanın mövcudluğu, ölkəmizin BMT-nin narkotik vasitələr və psixotrop maddələrlə əlaqədar baza konvensiyalarına qoşulması, bu sahədə məsələləri

tənzimləyən çoxsaylı milli qanunvericilik aktlarının qəbul olunması qeyd edilmiş və yüksək qiymətləndirilmişdir. Narkomaniyanın bəşəri problem olması ilə əlaqədar Respublikamızın bütün rayon və bölgələrində icra hakimiyyətlərinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə" rayon komissiyalarının 2011-ci il ərzində gördüyü işlər barədə hesabat xarakterli iclasları da keçirilmişdir. Narkotikləri istər qəbul etmək, istər gətirmək, istərsə də satmaq cinayət tərkibli əməldir. Əgər hər hansı bir cinayət tərkibli əməldə ilbəil artım varsa və bu getdikcə gəncləri və yeniyetmələri daha çox özünə cəlb edirsə onun qarşısının alınması yolunda profilaktik tədbirlərin görülməsi mütləqdir. Azərbaycan hökuməti narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni dövlət səviyyəsinə qaldıraraq narkotiklərlə mübarizə sahəsində qabaqcıl dünya təcrübəsinə əsaslanan kompleks tədbirləri ardıcıl olaraq sistemli şəkildə həyata keçirir.

***Narkomaniyaya qarşı mübarizədə kitabxanaların qarşısında duran vəzifələr***

Bu gün bəşəriyyəti düşündürən, rahatsız edən ən ağrılı problemlərdən biri və ən başlıcası, cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniyadır. Əlbəttə, başqa dövlətlərlə müqayisədə respublikamızda narkomaniya o qədər də dəhşətli şəkil almayıb. Ancaq yaddan çıxarmaq olmaz ki, narkomanlıq yoluxucu xəstəlikdir. HİV virusuna, QİÇS-ə aparan bir yol kimi, gizli şəkildə sürətlə yayılmaq xüsusiyyətlərinə malikdir. Yeniyetmə və gənclərinin narkomaniyaya qurşanması onların təhsildən yayınmasına, ictimai həyatdan uzaqlaşmasına, ətrafdakı insanlara daha çox cinayətkar simasının aşılanmasına, ən əsası da sağlamlıqlarının zərbə altında qalmasına səbəb olur. Bəzən həyətdə, küçədə, məktəbdə, işdə hətta bir narkomanın olması ətrafdakılara fəlakətli təsir göstərir. Çox vaxt narkotik qəbul etmək təklifi alan gəncin bu vasitələrin təhlükəliliyi haqqında informasiyaya malik olmaması, onun tərəfindən bu qorxunc və olduqca təhlükəli bəlanın başa düşülməməsi və təhlükəsinin lazımi dərəcədə qiymətləndirilməməsi şəraitində baş verir və bu dəhşətli vasitəyə ömürlük asılılıq yaranır. Gənc və yeniyetmələrin antinarkomaniya ruhunda tərbiyə olunması təkcə dövlətin üzərinə düşən məsuliyyət deyil. Bu məsuliyyətin mühüm bir hissəsi bütövlükdə cəmiyyətin, hər bir vətəndaşın, ictimai qurumların, kütləvi informasiya vasitələrinin (KİV), mədəni-maarif müəssisələrinin üzərinə düşür. Bu sahədə kitabxanaların rolunu xüsusilə qeyd etmək lazımdır. Kitabxanaların narkomaniyaya qarşı apardığı təbliğat çox güclü vasitədir. Kitabxanalarda narkomaniya, narkobiznes və ona qarşı mübarizə mövzusunda tədbirlərin həyata keçirilməsi zamanı kütləvi işin üç: əyani, şifahi, mətbuat (çap) formasından istifadə etmək məqsədəuyğundur. Narkomaniya və narkobiznesə qarşı mübarizə mövzusunda yeniyetmə və gənc oxucular arasında mühazirələrin keçirilməsi

vacibdir. Bu zaman mövzunun adı elə seçilməlidir ki, oxucularda maraq oyatsın. Məsələn: ***“Ağ ölümə qarşı mübarizə et!”, “Zərərli vərdişlər və ondan törənən fəsadlar”, “Bəşəriyyətin düçar olduğu bəla“, “Gəlin, gələcəyimizi qoruyaq!”, “Narkomaniyanın genofondumuza gətirdiyi fəsadlar”, “Narkomaniya və acınacaqlı həyat”*** və s. Əgər kitabxananın saytı varsa, ilk növbədə bu “ağ bəla” haqqında ətraflı məlumat çatdırmaq məqsədilə saytda müxtəlif məlumat bazaları, video çarxlar, elektron nəşrlər, fotolar yerləşdirmək məqsədəuyğun olardı. Kitabxanalar saytlarının Elanlar bölməsində keçiriləcək hər bir tədbir haqqında ətraflı məlumat verməli, tədbirin keçirilmə tarixi, saatı, yeri göstərilməli, tədbirin adı, məqsədi, iştirakçıların, dəvət olunacaq qonaqların adları açıqlanmalı, istifadə ediləcək ədəbiyyatların siyahısı öz əksini tapmalıdır. Yeniyetmələrlə treninq-mühazirə keçirilərkən onun hansı yaş qrupu üçün nəzərdə tutulduğu müəyyənləşdirilməlidir. Bunun üçün kitabxanaçı mövzu üzrə ədəbiyyat mənbələrini, mühazirədə iştirak edəcək qonaqları əvvəlcədən müəyyən etməli, dəvətnamə və elan hazırlamalı, videoçarx, məlumat bazaları, elektron sərgilər, plakatlar və başqa əyani vasitələrin hazırlanması əvvəlcədən müəyyən edilməlidir. Bu zaman reklamdan da istifadə etmək olar. Yəni rayon ərazisində radio qovşağı, televiziya vasitəsilə keçiriləcək tədbirlə bağlı məlumat vermək olar. Bütün bunlar reklam vasitəsi ilə daha ətraflı işıqlandırılaraq əhalinin nəzərinə çatdırılmalıdır. Tədbirdə icra hakimiyyəti, mədəniyyət şöbəsi, hüquq-mühafizə orqan əməkdaşları və rayon səhiyyə təşkilatının nümayəndələrinin iştirakı da məqsədəuyğun olardı. Mühazirədə yuxarı sinif şagirdlərinin, məktəbin müəllim və valideyn heyətinin iştirakı da mütləqdir. Tədbir aparıcının giriş sözü ilə başlamalı, mühazirənin mövzusu elan edilməli, dəvət olunmuş qonaqlar təqdim edilməlidir. Giriş mühazirəsində narkotik vasitələrin insan orqanizminə vurduğu zərərli təsirdən, onun törətdiyi ağır fəsadlardan, gənclərin sağlam nəsil artırmaq qabiliyyətinə malik olmamalarından danışılmalıdır. Əlaqədar təşkilatlardan dəvət olunmuş qonaqların mövzu ətrafında çıxışları, iştirakçıların yazılı formada verəcəkləri sualların onlar tərəfindən açıqlanması tədbirin daha da maraqlı olmasına səbəb ola bilər. Yaxşı olardı ki, tədbirdə yeniyetmələrin diqqəti narkotik qəbulunun son halına yönəldilsin. Onların başa düşəcəyi dildə söhbət aparılsın. Narkotikdən törənən acınacaqlı faciələrdən danışılsın. Çünki, psixoloqların fikrincə narkomanlar heç vaxt bu kimi asılılıqlardan, sonrakı fəsadlardan öz yaşıdlarına danışmırlar. Tədbiri gənc rejissor ***Vasif Acalovun “Narkomaniyaya yox deyək!” layihəsi əsasında hazırladığı “Paranormal həyat”*** adlı qısametrajlı filminin nümayişi ilə bitirmək olar. Kitabxanada narkomaniya qarşı mübarizə ilə bağlı söhbətlər də keçirilə bilər. Məsələn, “Narkomaniyaya gedən yol”. Tədbirin uğuru aparıcının savad və hazırlığından, onun müzakirəyə bütün oxucuları cəlb etmək bacarığından da asılıdır. Söhbətin keçirilməsində əsas məqsəd oxuculara ictimai siyasi həyatda

mürəkkəb, ziddiyyətli hadisələrə düzgün yanaşmaq, həyatın çətin anlarından düzgün baş çıxarmalarına köməklik göstərməkdir. Tədbir keçirilərkən oxucuların “ağ ölümün” zərərləri haqqında maariflənməsinə, narkomaniyaya səbəb olan amillər və ondan törənən fəsadların qabarıq şəkildə açıqlanmasına xususi fikir vermək lazımdır. Söhbəti narkomaniyaya aid qəzet və ya jurnal məqalələrinin oxunuşundan, mövzuya uyğun hər hansı bir sualın qoyuluşundan, kiçik bir söhbətdən, mövzu ilə əlaqədar video çarxın, sənədli filmlərin nümayişindən başlamaq olar. Söhbət zamanı aparıcı mövzuya dair bütün məsələləri əhatə etməli, aydın, yaddaqalan misallar, inandırıcı sübutlar göstərməlidir. Belə tədbirlərə hüquq-mühafizə orqanlarının əməkdaşlarının, səhiyyə işçilərinin, psixoloqların, narkomanlıqdan nicat yolu tapmış şəxsin də cəlb edilməsi tədbirin lazımi şəkildə istiqamətləndirilməsində, gənc və yeniyetmələrdə narkomaniya sahəsində anlayışların düzgün formalaşmasında çox əhəmiyyətlidir. Narkomaniyaya qarşı mübarizəyə dair oxucu konfranslarının keçirilməsi də vacibdir. Bu zaman kitabxanaçı-aparıcı keçiriləcək konfransın adını, dinləniləcək çıxışları, dəvət olunmuş qonaqların siyahısını və mövzu ətrafında dolğun çıxışlarını, tədbir keçirildiyi ərəfədə istinad edəcəyi görkəmli şəxslərin kəlamlarını, maraqlı fakt və materiallardan nümunələri əvvəlcədən müəyyənləşdirməli və bütün bunlar qabaqcadan kitabxanaçı tərəfindən tərtib olunmuş planda öz əksini tapmalıdır. Tədbir zamanı narkomaniyaya düçar olmuş insanların acınacaqlı aqibətlərini əks etdirən sənədli filmlərin nümayişini də təşkil etmək olar. Narkomaniyaya qarşı mübarizə mövzusunda kitab icmalı keçirərkən ilk növbədə mövzu ilə bağlı son dövrdə nəşr olunmuş müxtəlif tipli kitablar seçilməli, onların sərgisi təşkil olunmalıdır. Kitab icmalı keçirərkən hər kitaba geniş yer ayrılmalıdır. Məlumdur ki, kitab müzakirələri və oxucu konfransları uşaq kitabxanaları üçün kitab təbliğində böyük əhəmiyyət daşıyır. Bunlar məktəbli oxucuların formalaşmasına, dünyagörüşlərinə və əxlaq tərbiyəsinə böyük təsir göstərir. Məhz buna görə də alkoqolizm, QİÇS və narkomaniya ilə mübarizəyə həsr edilmiş mövzularda olan tədbirlərin keçirilməsinə xüsusi diqqətlə yanaşmaq lazımdır.Qeyd etmək lazımdır ki, narkomaniyaya qarşı mübarizəyə dair ədəbiyyatın mövzusu oxucuların yaş, bilik səviyyəsi, dünyagörüşünə bu və ya digər kitabın məzmununu müstəqil surətdə başa düşmək, onu təhlil etmək və müəyyən əməli nəticələr çıxara bilmək bacarıqlarına uyğun olmalıdır. Məhz buna görə də oxucular üçün keçirilən kitab müzakirələri və oxucu konfranslarının daha canlı və maraqlı olmasına çalışmaq lazımdır. Oxucular üçün qeyd etdiyimiz mövzulardan bəhs edən ədəbiyyatın müzakirəsini, onların mütaliə marağını artırmaq və oxuduqlarını dərindən başa düşmələrini təmin etmək üçün kitabxanaçılara müsahibə, sual-cavab, viktorina tədbirlərindən istifadə etmələri məsləhət görülür.Düzgün tərbiyə, yaşlıların yaxşı nümunəsi yeniyetməni güclü, mənəvi cəhətdən möhkəm, xeyirxah edir.

Tərbiyəsizlik, yaxud pis tərbiyə yetkinlik yaşına çatmayanlarda mənfi hislərin yaranmasına səbəb olar. Yetkinlik yaşına çatmayanların və gənclərimizin narkomanlığın faciəli girdabına yuvarlanmaması üçün hər zaman və hər yerdə - evdə, ailədə, məktəbdə, işdə təbliğat və maariflənmə yolu ilə kiçikdən-böyüyə qədər hamını başa salmalıyıq ki,  narkotik vasitələrdən uzaq olsunlar. Bu zəhərin dadına heç baxmasınlar, toxunmasınlar, əllərinə belə almasınıar. Çünki narkotiklər ölümdür, varlığın qənimi, həyatın sonudur.




Məsələn, "Narkomaniya – gələcəyi olmayan həyat" mövzusunda kitab icmalı keçirmək olar. Tədbirdə Natiq Rəsulzadənin son dövrdə nəşr olunmuş ***"Kabuslar arasında"*** kitabının icmalını təşkil etmək olar. İcmalın əvvəlində kitabın biblioqrafik təsviri, müəllif haqqında məlumat, kitabın məzmunu, onun keyfiyyətləri və nöqsanlarından yığcam danışılır, tərbiyəvi əhəmiyyəti qeyd olunur. Tədbirdə kitabın müəllifi iştirak edərsə bu icmalın daha da təsirli olmasına səbəb olar. Kitabxanada həmçinin bu mövzuda yazılmış yeni kitabların təqdimatını da keçirmək olar. Kitabın təqdimat mərasimi aparıcının 3-5 dəqiqəlik giriş sözü ilə başlayır. O, tədbir iştirakçılarını salamlayaraq, təqdimatın məqsədi, kitabın mövzusunun aktuallığı, gənc nəslin tərbiyəsindəki rolundan bəhs edir. Aparıcı təqdim olunan kitabın ya özünü, ya da fotoşəklini nümayiş etdirir. Texniki vasitələri olan olan kitabxanalarda proyektorun köməyi ilə ekranda kitabın elektron variantı da nümayiş etdirilə bilər. 10-15 dəqiqə ərzində kitabın kimlər üçün nəzərdə tutulduğu barədə danışılır, elektron variantda kitabın içindəkilər (mündəricatı) göstərilir. İştirakçılara kitabın yerləşdiyi İnternet ünvanları haqqında məlumat verilir. Bir neçə dəqiqə oxucularla dialoq aparılır. Kitabın əhəmiyyəti haqqında rəy və mülahizələr öyrənilir. Mövzuya uyğun suallar verilir, bu da oxucuların onları maraqlandıran suallara dolğun cavab tapmasına səbəb olar. Kitabxanalar narkomaniyaya qarşı mübarizə mövzusu ilə bağlı öz tədbirlərini böyük auditoriyalarda: məktəblərdə, Gənclər mərkəzlərində, liseylərdə keçirərsə daha da maraqlı olar.  Məsələn: "Narkomaniyaya YOX deyək!" və ya "Narkomaniya – Ağ ölüm" mövzusunda mövzu gecəsi keçirmək olar.




Mövzu müəyyən olunduqdan sonra kitabxanaçı mövzu ilə yaxından tanış olmalı, sənədli materiallar, dəqiq faktlar əsasında tədbirin planını, ssenarisini tərtib etməlidir. Bu səpkidə tədbirin hazırlanması yaradıcılıq qabiliyyəti tələb edir. Gecə üçün təşkil olunmuş sərgidə mövzuya uyğun kitabların siyahısını da iştirakçılara təqdim etmək məqsədəuyğundur. Bu cür tədbirdə

məktəbin dram və ya ədəbiyyat dərnəyinin üzvlərinin, kitabxananın fəal oxucularının iştirakı ilə dramaturq Arzu Soltanın ssenarisi əsasında tamaşaya qoyulmuş ***"Həyatla oyun"*** əsərindən səhnəciklər göstərmək, şeir parçaları səsləndirmək, sənədli filmlərin nümayişini təşkil etmək olar. Kitabxanada narkomaniya mövzusunda "Sual-cavab gecəsi" keçirərkən əvvəl mövzunun mahiyyətini, əhəmiyyətini açan kitablar seçilməli, qoyulacaq suallar əvvəlcədən müəyyənləşdirilməlidir. Tədbirin məktəblilər arasında keçirilməsi daha məqsədəuyğun olardı. Sorğu keçirilərkən uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Sualların qabaqcadan müəyyənləşdirilməsinə baxmayaraq, tədbir zamanı yeni sualların meydana çıxması istisna edilmir. Tədbirdə iştirakçıların suallarını yazılı şəkildə vermələrinə də şərait yaradılmalıdır. Bu onlara sıxılmayaraq maraqlandıqları suallara ətraflı cavab tapmalarına imkan verər. Qoyulan sualların əhatəli şəkildə işıqlandırılmasını, müzakirəsini, cavablandırılmasını təmin etmək üçün hüquq-mühafizə orqanlarının əməkdaşlarını, səhiyyə işçilərini, müəllim kollektivini, valideyn heyətini də tədbirə dəvət etmək çox yerinə düşərdi. Həmçinin, verilən suallara daha ətraflı cavab vermək üçün sual-cavab gecələrində əyani materiallardan, fotomontajlardan, kitab vitrin və sərgilərindən istifadə etmək, mövzu ilə bağlı ədəbiyyatları dinləyicilərə tövsiyə etmək çox vacibdir. "Narkomaniya, gəncliyimiz və ondan törənən fəsadlar" mövzusunda keçirilən sual-cavab gecəsində aşağıdakı suallar ətrafında müzakirə aparmaq olar. Müsahibə zamanı təqdim oluacaq sualları sizə təqdim edirik.

1. Özünüzü təqdim edin. Harda təhsil alırsınız?
2. Tez-tezmi kitabxanalara müraciət edirsiniz?
3. Hansı janrda olan ədəbiyyata daha çox üstünlük verirsiniz?
4. Narkomaniya mövzusuna əsərlərində müraciət edən yazıçılardan kimləri tanıyırsınız?
5. Narkomaniya nədir və narkomanlara münasibətiniz necədir?
6. Narkomaniyaya qarşı mübarizə mövzusunda hansı yazıçıların əsərlərini oxumusunuz?
7. Sizin fikrinizcə Narkomaniyaya qarşı mübarizənin ən önəmli atributları nələrdir?
8. Narkomaniyadan bəhs edən  əsərlərdən hansılarının adını çəkə bilərsiniz?
9. Siz gənc olmağın üstünlüyünü nədə görürsünüz?
10. Sizin fikrinizcə gələcəyimiz olan uşaqları bu bəladan necə qorumalıyıq?
11. Siz və təhsil aldığınız müəssisə narkomaniyaya qarşı mübarizə  mövzusunda nə kimi işlər görmüsünüz?
12. Sizcə təhsil gənclərimiz üçün nə dərəcədə önəmlidir?
13. Sizcə Azərbaycan gəncliyi nəyə qadirdir?

14.Narkomaniya mövzusunda Azərbaycan gənclərinə nə tövsiyyə edərdiniz?
15.Azərbaycanımızı necə görmək istərdiniz?
16.Sizcə Azərbaycan gəncliyi narkomaniyaya qarşı mübarizədə nə kimi yeniliklər etməlidir?
17.Asudə vaxtlarınızı necə keçirirsiniz?
18.Sizcə bizim gənclərin əsas problemləri nədən ibarətdir?
19.Ən çox sevdiyiniz məşğuliyyət nədir?
20. Özünüzü hazırki cəmiyyətdə hansı mövqedə görürsünüz?
21. Bəs gələcəkdə hansı mövqedə olmaq istərdiniz?
22. Siz gələcəkdə öz ixtisasınız üzrə mütəxəssis ola biləcəksinizmi?
23.Narkomaniyaya qarşı mübarizə mövzusuna siz nə təkliflər verə bilərsiniz?
24.Narkotiklərin xassələri, onun şəxsiyyətə və insan orqanizminə olan ziyanı haqqında nə bilirsiniz?
25.Gəncləri cinayətə, pis vərdişlərə sövq edən nədir?
26.Siz gələcəyinizi necə görmək istərdiniz?
27.Sizin fikrinizcə pis vərdişlərdən qorunmaq üçün gənclərimiz nə etməlidir?












Sual-cavab gecəsi cavabların auditoriyanı nə dərəcədə qane etməsi, növbəti gecənin hansı mövzuya həsr olunması və nəhayət, aparıcının yekun sözləri ilə bitir. Tədbirdə "Narkomaniyaya Yox deyək!" adlı kitab sərgisi də təşkil etmək lazımdır. Sərgidə aşağıdakı kəlamlardan istifadə etmək olar:

"İnsanların çoxunun dəyərini bilmədiyi iki şey vardır: sağlamlıqları və zamanları..."

Hz. Məhəmməd Peyğəmbər

"Narkomaniya gənclərin düçar ola biləcəyi ən böyük fəlakətdir! İnsanın sağlamlığını qorumaq, onu fiziki əzablardan xilas etmək mühüm, xeyirxah işdir."

Ulu öndər Heydər Əliyev






Təşkil olunmuş kitab sərgiləri mövzu ilə əlaqədar bir oyanış, çağırış, ayıqlıq xarakteri daşımalı, maraqlı olmalı və kitabxananın elə bir yerində təşkil olunmalıdır ki, oxucuların diqqətindən yayınmasın və hər zaman onları sağlam həyat tərzi keçirməyə, pis vərdişlərdən uzaq olmağa səsləsin. Sərgilərin təşkil edilməsində əsas məqsəd mövzuya dair ədəbiyyat və sənədləri oxucuya asanlıqla axtarıb tapmaqda yardımçı olmaqdır. Ümumiyyətlə, kitabxanaçı narkomaniyaya dair istənilən tədbir keçirərkən, ilk növbədə gənc və yeniyetmələrin diqqətini narkomaniyadan törənən ağır bəlalara yönəltməlidir. Onun ağır fəsadları, ailənin başına gələ biləcək müsibətlər və nəhayət, şəxsin öz taleyi, sonrakı işgəncəli həyatı bütün açıqlığı ilə oxucuların nəzərinə çatdırılmalıdır. Tədbirin keçirilməsinin başlıca məqsədi ondan ibarət olmalıdır ki, gənc və yeniyetmələr sonrakı faciəli həyatlarını bir neçə saatlıq həzzə qurban verməsinlər. Onlar bir neçə saatlıq sevincin arxasında necə böyük bir fəlakətin olduğunu heç vaxt unutmamalıdırlar. Günümüzün aktual problemlərindən biri də insan oğlunun narkomaniya kimi bir bəlanım qarşısında aciz qalmasıdır. Bəşəriyyəti narahat edən bu qlobal problemlə bütün dünya xalqları mübarizə aparır. Oxucuların saglam həyat tərzi yaşamaları üçün kitabxanaçılar narkomaniyaya meyllilivi aradan qaldırmaq məqsədilə geniş maarifləndirici tədbirlər həyata keçirirlər.

Bəli, narkomaniya müasir dövrün ən böyük bəlalarındandır. Narkotik maddələrin müntəzəm surətdə orqanizmə yeridilməsi insanda fiziki və psixi funksiyaların pozulmasına gətirib çıxarır. Çünki narkotiklərin qəbulu orqanizmin bütün üzvlərini zədələyir və onun dağılmasına səbəb olur. Gənclər çox vaxt təcrübəsiz olduqlarına görə alkoqolizmə və narkomaniyaya düçar olurlar. Bu bəlaların məhvedici nəticələrinin gənclərə vaxtında başa salınması, onların mənəvi cəhətdən düzgün tərbiyəsi belə neqativ halların aradan qaldırılmasına nə qədər böyük kömək göstərə bilərdi. Bu işdə kitabxanaçılar da fəal iştirak etməli, maarifləndirmə işlərinə kömək göstərməlidir. Yeniyetmələri mənəvi cəhətdən yoxsullaşmağa qoymamaq, onları cəmiyyət üçün layiqli şəxsiyyətlər kimi yetişdirmək kitabxanaçıların qarşısında duran ən ümdə vəzifələrdən biri olmalıdır. Yeniyetmə bilməlidir ki, narkoman cəmiyyət üçün qiymətini itirmiş bir varlıqdır. Narkomaniya ürək-damar sistemində, qaraciyərdə geri dönməyən proseslər törədir. Narkomaniyaya tutulmuş orqanizm tədricən dağılır, bu nəhayət ölümlə nəticələnir. Bütün bunları nəzərə alaraq, narkomaniyanın müalicəsinə tez başlamaq lazımdır. Çünki pozulmuş funksiyaların bərpası gecikdirilərsə, müalicə çətinləşə bilər. Düşünmək lazımdır ki, gələcək bu gündən sağlam nəsil gözləyir.

Narkomaniya xəstəliyinə yoluxanlara diqqət və mərhəmətimizi bir an belə əsirgəməməli, onların dözülməz ağrı və iztirablarına biganə qalmamalı, sarsıntılarını aradan qaldırmalı, onları saglam həyata qaytarmaq üçün əlimizdən gələni etməliyik. Bu məqsədlə yeni müalicə üsulları aranmalı, tibbi axtarışlar davam etdirilməli, mövcud mübarizə vasitələrindən geniş istifadə olunmalıdır. Məktəbliləri bu pis vərdişlərdən uzaqlaşdırmaq üçün onların arasında “Narkomaniyaya yox deyek!” mövzusunda inşa müsabiqəsinin keçirilməsi yaxşı nəticələr verə bilər. Mövzunu işləyərkən uşaqlar müvafiq ədəbiyyatı oxuyub, internetdən lazımi informasiyanı almış olacaqlar. Bu da istər-istəməz onlara narkomaniya və alkoqolizmin pis vərdişləri ilə bağlı məlumatlanmasına səbəb olacaq. Nəticələr yoxlanıldıqdan sonra ilk üç yerin sahibi mükafatlandırılarsa bu uşaqların öz hüquqlarını öyrənmək həvəsini daha da artırar. Eyni adda rəsm müsabiqəsinin keçirilməsi də yaxşı nəticələr verər.

**Sağlam həyat tərzi keçirək**

**Mütaliə edək**







Məktəblərdə valideynlərlə görüşün təşkil edilməsi də bu sahədə böyük irəliləyişlərə səbəb olar. Valideynlər uşaqların və onların fiziki əqli inkişafının qayğısına qalmağa və onları vətənin laiqli vətəndaşı kimi böyütməyə borcludurlar. Valideynlər öz hüquq və vəzifələrini uşaqlarına aşılamalı və onları düzgün istiqamətləndirməlidirlər. Məktəblilərlə “Narkomaniyaya yox deyək!? ” adlı disputun keçirilməsi yaxşı nəticələrə gətirib çıxarar. Belə ki, uşaqlarla bu haqda söhbətin aparılması onların bu sahədə maariflənməsinə kömək edə bilər. Tədbirə hər hansı bir uşaq hüquqları təşkilatının nümayəndəsini dəvət edərək uşaqları maraqlandıran sualların cavablandırılmasına şərait yaratmaq da məqsədə uyğundur. Uşaqlarla bu mövzuda danışarkən slaydlardan istifadə olunması, narkomaniyanın fəsadlarının daha yaxşı başa düşmələrinə yardımçı olar. Bu məqsədlə müvafiq slaydları da onlara təqdim etmək olar. Narkomaniya ilə bərabər məktəblilərə alkoqolizm və papirosun da insan orqanizmine vurduğu ziyanlardan danışmaq lazımdır.




Narkomaniya və alkoqolizmin pis vərdişlərini özündə əks etdirən İsmayıl Qarayevin ***“Məni tanıdınmi?”,*** kimi əsərlərinin oxuculara tövsiyə olunması məqsədəuyğun ola bilər. Belə ki, bu əsərlərin hər birində insanların acınacaqlı vəziyyəti, bir parça çörək uğrunda qatlaşdıqları iztirab, təhsil ala bilməmələri hazırki dövr üçün də

müəyyən qədər xarakterikdir. Məlumdur ki, kitab müzakirələri və oxucu konfransları uşaq kitabxanaları üçün kitab təbliğində böyük əhəmiyyət daşıyır. Bunlar məktəbli oxucuların formalaşmasına, dünyagörüşlərinə və əxlaq tərbiyəsinə böyük təsir göstərir. Alkoqolizm, QİÇS və narkomaniya ilə mübarizəyə həsr edilmiş mövzularda olan tədbirlərin keçirilməsi də yerinə düşər. Belə zəhərli, pis vərdişlərdən uzaq olmanın ən asan yolu uşaqlarımızı idmana həvəsləndirmək, boş vaxtlarını idmanla bağlı əyləncəli oyunlarla keçirməsinə çalışmalıyıq.Qeyd etmək lazımdır ki, narkomaniyaya qarşı mübarizəyə dair ədəbiyyatın mövzusu oxucuların yaş, bilik səviyyəsi, dünyagörüşünə bu və ya digər kitabın məzmununu müstəqil surətdə başa düşmək, onu təhlil etmək və müəyyən əməli nəticələr çıxara bilmək bacarıqlarına uyğun olmalıdır. Məhz buna görə də oxucular üçün keçirilən kitab müzakirələri və oxucu konfranslarının daha canlı və maraqlı olmasına çalışmaq lazımdır. Oxucular üçün qeyd etdiyimiz mövzulardan bəhs edən ədəbiyyatın müzakirəsini, onların mütaliə marağını artırmaq və oxuduqlarını dərindən başa düşmələrini təmin etmək üçün kitabxanaçılara müsahibə, sual-cavab, viktorina tədbirlərindən istifadə etmələri məsləhət görülür.



Düzgün tərbiyə, yaşlıların yaxşı nümunəsi yeniyetməni güclü, mənəvi cəhətdən möhkəm, xeyirxah edir. Tərbiyəsizlik, yaxud pis tərbiyə yetkinlik yaşına çatmayanlarda mənfi hislərin yaranmasına səbəb olar.

Gənclərin mənəvi-əxlaq tərbiyəsi, onlar arasında cinayətkarlığın, narkomaniyanın və digər mənfi meyllərin azaldılması və aradan qaldırılması vəzifəsi hər bir təhsil-tərbiyə müəssisəsinin, bu sahədə çalışan hər bir işçinin qarşısında duran məsul vəzifədir. F. Köçərli adına RUK-sı olaraq kitabxanamızda vaxtaşırı bu mövzuya müraciət olunur, narkomaniyaya qarşı təbliğat işləri aparılır. Sona Xəyalın kitabından götürülmüş ***“İnsanın düzgün tərbiyəsi, sağlamlığı, cəmiyyətdə saf mövqeyi qarşıda duran ən böyük vəzifələrdən biridir. Bu vəzifənin yerinə yetirilməsi üçün cəmiyyətin hər bir üzvü məsuliyyət daşıyır. Heç kəs bu işdən kənarda qalmamalıdır. Düşünmək lazımdır ki, gələcək bu gündən başlayır”*** sözləri kitabxanaçıların qarşısında duran məsuliyyətli bir vəzifəni həyata keçirməyə sövq edir.

Məsələn: F.Köçərli adına Respublika Uşaq kitabxanası Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2007-ci il tarixli 2271 saylı Sərəncamı ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007-2012-ci

illər)"ın tələblərindən irəli gələn vəzifələri yerinə yetirmək və Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyanın "İş Planı"ndan irəli gələn bir sıra vəzifələrin icrasını təmin etmək məqsədi ilə "Narkomaniyaya yox deyək!" devizi altında tədbirlər planına uyğun olaraq məktəblərdə, internat və uşaq evlərində tədbirlər keçirmişdir. Gəlin, gördüyümüz bu səmərəli fəaliyyətimizə qısa nəzər salaq.



2011-ci il aprelin 26-da F.Köçərli adına Respublika Uşaq Kitabxanasında **"Narkomaniyaya yox deyək!"** mövzusunda treninq-mühazirə keçirildi. Tədbirdə kitabxananın əməkdaşları, Nəsimi rayonundakı 42 saylı məktəbin müəllim və şagirdləri iştirak etdilər. Kitabxanaçılarımız uşaqlarla treninq-mühazirə keçirib, narkomaniyanın dəhşətli fəsadları, ona qarşı mübarizə tədbirləri haqqında geniş məlumat verdilər. Tədbir iştirakçılarına bu bəladan törəyən QİÇS xəstəliyi (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) haqqında geniş məlumat verildi, narkomaniyaya aludə olmuş yeniyetmələrdən alınan müsahibələri onların diqqətinə çatdırıldı. Tədbirdə narkomaniyanın fəsadlarını özündə əks etdirən ***"Narkomaniya nədir?" adlı çarxlı təqdimat slaydları*** nümayiş etdirildi. Tədbirdə iştirak edən Bakı Şəhər Narkoloji Dispanserin həkimi Təriqə Quliyeva şagirdləri maraqlandıran bütün sualları cavablandırdı. Məktəblilərin narkomaniya ilə bağlı bilgiləri komandalar şəklində interaktiv oyun əsasında yoxlanıldı, daha yaxşı plakat hazırlayaraq təqdim edən komanda mükafatlandırıldı. Digər tədbir iştirakçılarına kitabxananın təsis etdiyi "Göy qurşağı" jurnalı verildi.2011-ci ildə Yasamal rayonundakı 60 nömrəli orta məktəbdə "Narkomaniya- Ağ ölüm" mövzusunda







tədbir keçirildi. Tədbiri giriş sözü ilə açan məktəbin direktoru bildirdi ki, son illərdə dünyada narkotiklərə nəzarət, narkomaniya ilə mübarizə istiqamətində bir

sıra ciddi tədbirlər görülür. Ümumbəşəri bir problemə çevrilən narkomaniyanın fəsadlarından söz açıldı. Qeyd edildi ki, narkomaniyaya qurşananlar təhsilə, işə, ailəyə, dostlarına maraqlarını itirir və özlərini cəmiyyətdən təcrid edirlər. Beləliklə də insan həyatı zəhərlənir. Buna görə də ümumbəşəri problemin profilaktikası sahəsində Azərbaycanda da bu cür məqsədyönlü proqramlar həyata keçirilir.Tədbirdə "Resurs" Gənclərin İnkişafı İctimai Birliyinin sədri Samir Mehdizadə qeyd etdi ki, ilk öncə ailə tərbiyə ocağıdır. Ona görə də ailədə və ailədaxili münasibətlərdə sağlam psixopedaqoji mühitin olması çox zəruridir. Psixoloq Səidə Musayeva və başqaları çıxış edərək narkomaniyaya qarşı aparılan maarifləndirmə işlərinin əhəmiyyətindən danışdılar.



2012-ci ildə Məlumat biblioqrafiya şöbəsi Narkomaniya ilə mübarizə sahəsində maarifləndirmə işi aparmaq məqsədilə “Sağlam həyat tərzi keçirək” başlığı altında buklet hazırlamışdır. Bu bukletdə Azərbaycan Respublikasının “Gənclər siyasəti ” və “Narkoloji xidmət və nəzarət haqqında ” qanunlarının maddələri öz əksini tapmış və yeniyetmələr arasında təbliğat işi aparmaq üçün ədəbiyyat siyahısı verilmişdir. Həmin buklet kitabxanada və kitabxananın məktəb və məktəbdənkənar tərbiyə müəssisələrində təşkil etdiyi tədbirlərdə uşaqlara paylanmışdır.

Bundan başqa Məlumat-biblioqrafiya şöbəsi 2 saylı texniki-humanitar liseyində, 164, 152 saylı məktəblərdə yuxarı sinif şagirdləri üçün ***“Sağlam həyat tərzi keçirək”*** başlığı altında sərgi icmallar da təşkil etmişdir. Bu sərgilərdə kitabxanaçılar hər şeydən əvvəl bu mövzuya aid olan dövlət sənədləri haqqında yeniyetmələrə məlumat vermiş, narkomaniyanın fəsadları haqqında açıq söhbət aparmışlar. Sərgidə nümayiş etdirilən ***İ. Qarayevin “Məni tanıdınmı?”, Ç. Abdullayevin “Mavi mələklər” və “Qisasın ölçüsü”, E.Elatlının “Görünməyən izlər”, N. Əfəndiyevanın “Gəlin söhbət edək”, S.Xəyalın “Təbiət, təbabət və insan: tibbi-bioloji yazılar”*** kitabları uşaqların diqqətini cəlb etmişdir. Kitabxanaçılar həmin kitablar haqqında oxuculara geniş məlumat vermişdir. Bu tədbirlər uşaqların bu mövzuda olan ədəbiyyata marağını artırmış və oxucu sorğularının çoxalmasına səbəb olmuşdur.

2013-cü il 27 may tarixində 2 saylı filial SOS uşaq kəndində ***“Gələcəyə sağlam addımlarla”*** mövzusunda tədbir keçirdi. Tədbiri giriş sözü ilə açan kitabxananın filial müdiri Gülarə xanım tədbirə dəvət olunmuş şəxsləri təqdim etdikdən sonra tədbirin keçirilməsinin məqsədi və mahiyyətindən danışaraq narkomanlığa qarşı

kütləvi surətdə mübarizə aparmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2271 saylı sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılmasına qarşı mübarizə üzrə dövlət proqramı"nın əhəmiyyəti haqqında dinləyiciləri ətraflı məlumatlandırdı. Daha sonra Xətai rayon Gənclər və İdman İdarəsinin əməkdaşı çıxış edərək narkotik maddələrə aludəçiliyin ən çox yeniyetmə və gənclər arasında təsadüf olunduğunu vurğuladı, bunun da ağır nəticələri ailə münaqişələri, qeyri - normal həyat tərzi, xəstə uşaqların həyata gəlməsi və s. problemlərlə müşayiət edildiyini söylədi. Çıxışlardan sonra yeniyetmələr arasında narkomanlığa alüdəçiıiyin ilkin mərhələlərdəcə aradan qaldırılması yollarının təhlili haqda fikir mübadilələri aparıldı, məsləhət və tövsiyyələr dinlənildi, şagirdləri maraqlandıran suallar cavablandırıldı. Tədbirin sonunda SOS uşaq kəndinin sakinlərinin çəkdikləri rəsmlərə baxış keçirildi. Sərgi iştirakçılarına hədiyyələr verildi.

3 iyun 2013-cü ildə kitabxananın oxu zalında ***“Narkomaniyaya qarşı mübarizə və sağlam həyat tərzi”*** mövzusunda tədbir keçirildi. Tədbirdə oxucular arasında rəy sorğusu aparıldı, slaydlara baxıldı, maarifləndirici məlumatlar verildi. Azərbaycan Uşaq Birliyinin nümayəndəsi Dadaş Əhmədzadə bildirdi ki, narkomaniya bəşəriyyətin bəlalarından biridir. BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” Bəyannaməsinə əsasən 26 iyun “ Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə günü ” kimi qeyd olunur. Ayrı-ayrı dövlətlər ildən-ilə narkotiklərin qanunsuz dövriyyəsi ilə səmərəli mübarizə üsullarını və narkomanlığın müalicə metodlarını təkmilləşdirmək və bu sahədə yeni mübarizə üsullarını kəşf etmək istiqamətində səylərini artırırlar. Fərdi şəkildə və ya beynəlxalq əməkdaşlıq çərçivəsində bu problemə qarşı birgə mübarizə aparılmasına baxmayaraq, dünya üzrə narkomaniyaya düçar olanların sayı ildən-ilə artmaqdadır. Müxtəlif adamlar tərəfindən eyni iynədən venadaxili narkotik maddə qəbul etməyə görə 90 faiz narkoman QİÇS xəstəliyinə yoluxmuşdur. Son illər Respublikamızda narkotik vasitələrə və bihuşedici maddələrə qarşı mübarizə xeyli güclənmiş, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, QHT-lər, ictimai təşkilatlar da fəallığı xeyli artırmışdılar. Bununla yanaşı, Azərbaycanda narkomaniyaya qarşı mübarizə üzrə maarifləndirmə işlərinin səviyyəsi də artırılmalıdır. Narkotiklərdən istifadənin təhlükəli nəticələri üzrə maarifləndirmə lazımi səviyyədə aparılmadığından, ölkədə narkomaniya “ cavanlaşır ”. Bu istiqamətdə maarifləndirmə nəinki Bakıda, həm də ölkənin bütün regionlarında aparılmalıdır. Onun sözlərinə görə, narkomaniyaya qurşanan şəxsləri sonradan müalicə etmək çox çətin olur. Belə ki, narkotik vasitə qəbul edən şəxslər oğurluğa da meylli olurlar.Tədbirin sonunda orta məktəb

şagirdləri ilə tədbir iştirakçıları arasında dialoq aparıldı. Şagirdlər narkomaniyanın törətdiyi bəlalardan danışdılar və belə halları pislədilər. Həmçinin şagirdlər məişət zorakılığı ilə bağlı mövzularda tədbir iştirakçılarına suallar ünvanladılar. Anket test sorğuları müzakirə edildi.

İl ərzində bir sıra məktəblərdə bu mövzuda yazan yazıçılarla oxucuların görüşləri təşkil olunmuşdur. Bakının Yasamal rayonundakı 53 saylı məktəbin yuxarı sinif şagirdləri ilə ***E.Elatlının "Görünməyən izlər"*** kitabının müzakirəsi keçirilmişdir.

Həmçinin xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin katibi, PEN klubun vitse-prezidenti, hüquq elmləri doktoru, "Şöhrət" ordenli Çingiz Abdullayevlə görüş keçirilmişdir. Tədbirdə Ç.Abdullayevin həyatı, yaradıcılığının əsas istiqamətləri haqqında ***"Bizim əbədi Dronqo"*** adlı çarxlı slaydın nümayişi ilə rus və azərbaycan dillərində məlumat verilmişdir. Görüşdə yazıçının "***Göy mələklər", "Qisasın ölçüsü"*** kitablarının müzakirəsi keçirilmişdir. Daha sonra xalq yazıçısı Çingiz Abdullayev öz yaradıcılığından, yazdığı son kitablarından və onları yazarkən rastlaşdığı maraqlı hadisələrdən danışdı. Görüş oxucuların sualları ilə davam etdi. Yeniyetmələrin və digər iştirakçıların suallarını cavablandırarkən Çingiz Abdullayevin bölüşdüyü xatirələr iştirakçıların böyük marağına səbəb olmuşdur. Keçirilən bu tədbirlər yeniyetmələri vətənpərvərlik ruhunda tərbiyə olunmağa, əsl vətəndaş kimi formalaşmağa, intellektual səviyyələrini daim yüksəltməyə, dünyagörüşünü genişləndirməyə bir çağırış oldu. Yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, onlarda elmə, biliklərin əldə edilməsinə maraq oyadılmasında bu cür tədbirlərin əhəmiyyəti böyükdür.

Hamımıza bəllidir ki, hər bir insanın əhəmiyyəti onun Vətən qarşısında borcu ilə ölçülür. Vətənin layiqli övladı olmaq üçün daha çox elmi biliklərə yiyələnmək lazımdır. Hazırda komputer əsrində yaşasaq da, elmi biliklərə yiyələnmədən mənəviyyatca saf, milli dini dəyərlərə sahib olmaq olmaz. Çünki, bu biliklər yetişməkdə olan gənc nəslin daha kamil inkişaf etməsi üçün vacib olan əsas ünsürlərdəndir. Çünki insan öyrənməklə formalaşır, mətinləşir, dərin biliyə yiyələnir. Bəs kamil vətəndaş necə olmalıdır? Necə yaşamalı, həyatını necə qurmalıdır?

Yetkinlik yaşına çatmamış, və müstəqil həyata qədəm qoymuş yeniyetmələr daha çox bu suallarla qarşılaşırlar: Onlara bu sualların həllində kömək edənlər sırasında isə məktəb və mədəniyyət ocaqlarımızla yanaşı kitabxanalarımızda xüsusi yer tutur.Yetkinlik yaşına çatmayanların çoxu təhsil almadan əmək fəaliyyətinə başlayaraq cəmiyyət qarşısında müəyyən vəzifələr daşımağa başlayırlar. Bu baxımdan hələ öz hüquqlarını dərindən bilmədən, kortəbii şəkildə heç bir məsuliyyəti dərk etmədən cəmiyyətə atılırlar. Bu da onlarda hələ uşaq yaşlarından bilməyərəkdən müəyyən hüquq məsuliyyətinə cəlb olunmağına gətirib çıxarır.

Yeniyetmələrin çoxu polis, müstəntiq, hüquq, prokurorluq, idarələrinin funksiyalarını, hüquq və vəzifələrini düzgün başa düşmür. Buna görə də ətraf aləmdə baş verən hadisələrin çoxuna kortəbii münasibət bəsləyərək nəyin cinayət olduğunun fərqinə varmırlar.

***Böyüməkdə olan gənc nəslin hüquqi baxımdan tərbiyələndirilməsi üçün uşaq cinayətkarlığı ilə mübarizə:***

Yetkinlik yaşına çatmayanların hüquq tərbiyəsində məktəblərin, pedoqoji müəsisələrin, uşaq təşkilatlarının, kitabxanaların xüsusi rolu vardır. Məhz bu kollektivlərin həyata keçirdikləri tədbirlər nəticəsində onlarda cəmiyyət hadisələri haqqında xüsusi təsəvvür yaradılaraq, həyat hadisələrinə düzgün yanaşmaq üçün onlara zəmin yaradılır. Yaş artıqca yeniyetmələrdə cinayət hüquq normalarını öyrənməyə maraq da güclənir. Bu psixoloji meyl əsasən VII – IX sinif şagirdləri üçün səciyyəvidir. Belə ki, azyaşlılar barəsində cinayətetmə, onları cinayətə cəlb etmə məsuliyyəti ağırlaşdıran hallardır. Yetkinlik yaşına çatmayanları cinayətkarlığa, alkoqolizmə, narkomaniyaya cəlb etmə, və s. görə də ciddi cəzalar tətbiq olunur.Millətin gələcəyini müəyyənləşdirən o millətin uşaqları, gəncliyidir. Dünənin uşaqları bugünün gəncləri, bu günün gəncləri isə sabahın gələcəyidir. Sabahın idarəçiləri, sabahın ailə başçılarıdır. Ancaq bəzi problemlər var ki, bu dilindən, irqindən asılı olmayaraq hər bir millətin problemidir. Spirtli içkilərə aludəçilik, narkomaniya, “Qics” belə problemlərdəndir.

Yetkinlik yaşına çatmamışların cinayətkarlığına qarşı mübarizəni gücləndirmək, bu sahədə görülən işlərin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının kabineti 6 mart 1995-ci iltarixdə “Azərbaycan Respublikasında yetkinlik yaşına çatmamışların cinayətkarlığına qarşı mübarizə” üzrə Respublika Kompleks proqramı haqqında qərar qəbul etmişdir.

Bu qərara əsasən Azərbaycanda ən çox yetkinlik yaşına çatmamış uşaqların aludə olduğu dövriyyədə olan narkotik vasitələrlə mübarizənin gücləndirilməsi haqqında tədbirlər gücləndirilməsi nəzərdə tutulmuşdur.

Yetkinlik yaşına çatmayanlarla cinayətkarlığa qarşı mübarizə sahəsində F. Köçərli adına Respublika Uşaq kitabxanasının rolu böyükdür. Kitabxanada hüquq təbliğinə dair hər hansı tədbirlərin maraqlı və canlı olmasına xüsusi diqqət yetirilir. Uşaq və yeniyetmələr arasında hüquqi biliklərin təbliği bu işdə əsas yer tutur. Qeyd etmək lazımdır ki, respublikamızın ümumtəhsil məktəblərində hüquq elminin bir fənn kimi öyrənilməsi ilə yanaşı hüquq biliklərinin təbliğini və hüquq tərbiyə işinin genişləndirmək məqsədi ilə şəhər, rayon, uşaq, və məktəb kitabxana təbliğat işləri aparmalıdır. Belə ki, hüquq məsələlərinə dair mühazirələr, viktorinalar, söhbətlər, ədliyyə, məhkəmə, polis, prokurorluq işçiləri ilə görüşlər təşkil edilməli, hüquq mövzusunda konfranslar keçirilməlidir. Bu mövzuda kitabxanada kinofilmlərə,

teatr zallarında uşaqlarla teatr tamaşalarına kütləvi baxış keçirilməsi məsləhətdir. Məlumdur ki, kitab müzakirələri və oxucu konfransları uşaq kitabxanaları üçün kitab təbliğində böyük əhəmiyyətə malikdir. Bunlar məktəbli oxucuların formalaşmasına, əxlaq tərbiyəsinə böyük təsir göstərir. Məhz buna görə də kitabxanalarda narkomaniyaya qarşı mübarizə mövzusunda, hüquqi mövzuda, cinayətkarlıqla mübarizə mövzularında bu kimi tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilir.

Kitabxanada ekskursiya təşkil edib,oxucuları Arzu Soltanın qələmə aldığı İntiqam Soltanın səhnələşdirdiyi ***"Xaşxaşın göz yaşı"*** tamaşasına aparmaqla Narkomaniya mövzusunda səmərəli təbliğat işi aparmış olarıq. Bildiyimiz kimi Bakı Uşaq Teatrının repertuarında olan narkomaniya və QİÇS mövzusuna həsr olunmuş ***"Xaşxaşın göz yaşı"*** tamaşası QİÇS-lə mübarizədə ən yaxşı fəaliyyət kimi Sağlamlıq Hüquqları Klinikasının keçirdiyi müsabiqənin qalibi olub.

Düzgün tərbiyə, yaşlıların yaxşı nümunəsi yeniyetməni güclü, mənəvi cəhətdən möhkəm, xeyirxah edir. Tərbiyəsizlik və yaxud pis tərbiyə, yaşlıların pis nümunəsi yetkinlik yaşına çatmayanlarda mənfi hislərin yaranmasına səbəb olur.Yetkinlik yaşına çatmayanların tərbiyəsi cəmiyyətin əsas vəzifələrindəndir. Müasir dövrdə bu işdə kitabxançı əməyini də qeyd etmək yerinə düşər.Ümumiyyətlə yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığa qarşı mübarizə məqsədi ilə keçirilən tədbirlərdə N. Tusinin "Əxlaqi-Nasir" kitabı əsasında söhbətlərin, oxucu konfranslarının, müzakirələrin keçirilməsi yerinə düşərdi. Oxucularla kitab müzakirələri zamanı kitabxanaçı əməyi əsas yer tutur. Bədii ədəbiyyatda sözün kəsərinin nəzərə alınması kitabxana işçisinin işində əsas meyar olmalıldır. Oxucular arasında ***"Azərbaycan ədəbiyyatında sərxoşluq əleyhinə mübarizə motivləri", "Azərbaycan dedektiv ədəbiyyatı", Ç. Abdullayevin Göy mələklər", E. Elatlının "Görünməyən izlər, X. Əlizadənin "Zəncir", A. Əliyevin "Cəhənnəmə gedən yol", İ. Qarayevin "Məni tanıdınmı" " Cəmşid Əmirovun romanları*** **" və s.** əsərlərin müzakirəsini keçirmək məqsədəuyğundur. Bədii ədəbiyyat ictimai fikrə təsir göstərmək imkanına malikdir.Kitabxanamızın son illərdə Elmi Metodika və Məlumat biblioqrafiya şöbəsi Narkomaniya ilə mübarizə sahəsində gəncliyimizin sağlamlığı üçün səmərəli maarifləndirmə işi aparır. Bu məqsədlə kitabxanamız "Sağlam həyat tərzi keçirək" başlığı altında




buklet hazırlamışdır. Bu bukletdə Azərbaycan Respublikasının " Gənclər siyasəti " və " Narkoloji xidmət və nəzarət haqqında " qanunlarının maddələri öz əksini tapmış və yeniyetmələr arasında təbliğat işi aparmaq üçün ədəbiyyat siyahısı verilmişdir. Burada müvafiq narkomaniya ilə bağlı dövlət tərəfindən qəbul edilmiş sənədlər verilmişdir.



Müxtəlif tədbirlərdə əyani vəsait kimi Narkomaniya ilə bağlı hazırlanmış slaydlar isə tədbiri, mövzunu daha canlı edir. Bu vəsaitlər kitabxanaçılara narkomaniya ilə bağlı metodik köməklik etmək məqsədilə kitabxananın clb.az saytında yerləşdirilmişdir. Hazırlanmış ədəbiyyat siyahısında narkomaniya ilə bağlı müvafiq dovlət sənədləri göstərilmişdir. Bu gün kitabxanamız narkomaniyaya qarşı mübarizədə mübarizə tədbirlərini gücləndirməkdədir. Uşaq cinayətinə qarşı mübarizənin təbliğ edilməsi üçün kitabxanamızda uşaqların hüquqi biliklərə dərindən yiyələnməsi üçün kitabxanaçılarımızın gündəlik qəzet və jurnallarda dərc edilmiş qanunlarla oxucuları yaxından tanış edilməsi böyük əhəmiyyət daşıyır. Məktəbli oxucular arsında isə bu bilikləri bu sahədə müxtəlif kitab təbliği formaları ilə həyata keçirilir.Narkomaniyaya qarşı aparılan təbliğat işləri zamanı onları başa salmaq lazımdır ki, hər bir yeniyetmə bilməlidir ki, əgər narkotik maddə qəbul edirsə, dəhşətli ağrılar tapacaq və bu bəlada heç zaman qurtara bilməyəcək. Təəsüflə qeyd etmək lazımdır ki, azyaşlılar və yeniyetmələr arasında bu bəladan daha çox əziyyət çəkir. Və onlar daha sürətlə yayılır. Oxucularla söhbət zamanı onlara narkomaniyanın gətirdiyi bəlalar şərh olunmalıdır. Narkomaniya hamı üçün həm narkomanın özü həmdə, ətraf mühit – ailə, kollektiv cəmiyyət üçün də zərərlidir. Sirr deyil ki, mövcud cinayətlərin çoxu elə narkomaniyanın təsiri altında törədilir.

Kitabxanalarla yanaşı mətbuat, radio və televiziyalar da, yetkinlik yaşına çatmayan uşaqlarla cinayətkarlığa qarşı və narkomaniyaya qarşı mübarizədə güclü təbliğat işləri ilə məşğul olmalıdır. Çünki bu problem elə bir dəhşətli problemdir ki, ona qarşı mübarizədə bütün vasitələrdən istifadə etməliyik. Xüsusən azyaşlıları və yetkinlik yaşına çatmayan uşaqlarla mübarizədə bu işi daha da gücləndirməliyik. Sağlam zəkaya, fiziki qüvvəyə malik olan Azərbaycan xalqı bu ölkənin yeganə varisidir. Azərbaycan Respublikasının Beynəlxalq aləmə çıxması, onun nüfuzlu Beynəlxalq məclislərdə təmsil olunması xalqımızda soy kökünə qayıdış, milli qürur və milli şüurun formalaşmasına, milli ləyaqətin tərbiyə edilməsinə ciddi zəmin və şərait yaratmışdır. Azərbaycan xalqı, onun ziyalısı, fəhləsi, kəndlisi, məktəblisi milli kökü, tarixi, ədəbiyyatı haqqında, özünün tarixi köklərini dərindən dərk etməyə çalışır. Hər bir məktəblidə milli mənlik şüurunun formalaşdırılması onun cəmiyyətdə, ictimai münasibətlərin bütün sistemində tutduğu və oynadığı rolu müəyyənləşdirir, onun mənəvi keyfiyyətlərinin qabarıq ifadəsinə çevirir. Maddi və mənəvi zəmində tərbiyə olunan məktəbli özünün, xalqının varlığını dərk edir, torpaq, Vətən, xalq, millət kimi böyük arzular və

müqəddəs amallar dünyasına daxil olur. Bu çox mürəkkəb prosesdə onun mənəviyyatı, əqidəsi, dünyagörüşü formalaşır. Məktəbli dərindən-dərinə dərk edir ki, əzəmətli ağaclar öz kökləri üzərində dayandığı kimi hər bir şəxs də öz xalqı, öz milləti içərisində təşəkkül tapır, öz xalqına, öz millətinə xidmət edir. Milli şüur




formalaşdıqca məktəblidə milli ləyaqət tərbiyə olunur. Məktəbli oxucu belə bir həqiqəti dərk edir ki, millət və xalqın, Vətənin, doğma yurdun taleyi onun taleyinə qovuşur, şəxsi ideal və arzuların tərkib hissəsinə çevrilir. Böyüməkdə olan nəslin milli şüurunun və milli ləyaqətinin tərbiyə edilməsində, mədəniyyətimizin, tariximizin, ədəbiyyatımızın onlara düzgün öyrədilməsində kitabxanaçılarımızın, xüsusilə uşaq kitabxanaçılarının qarşısında mühüm vəzifələr dayanır. Bu məqsədlə kitabxanaçılar məktəbli oxucuları dərsliklərdən kənara çıxararaq digər bədii nümunələrlə tanış etməli və onları həmin əsərləri oxuyub nəticə çıxarmağa istiqamətləndirməlidirlər. Məktəblilərdə milli şüuru formalaşdıran imkanlar daha geniş və əhatəlidir. Bu imkanlar sırasında müəllim şəxsiyyəti, dərsliklər, informasiya vasitələri xüsusulə də mənəvi xəzinəmiz olan kitabxanalar mühüm rol oynayır. Məktəbli oxucuların həyatın fəal mübarizləri kimi pak və səmimi duyğularla Vətənə, xalqa bağlılıq ruhunda ləyaqətli vətəndaş kimi tərbiyə edilməsi üçün müəllimlərlə yanaşı kitabxanaçılar da sinifdənxaric tədbirlərdə dərs prosesini sıx şəkildə əlaqələndirməli və bu əlaqələri bacarıqla hisslərin, duyğuların əməli tərbiyəsinə yönəltməyə çalışmalıdırlar. Ölkəmizdə bir sıra intellektual gənclər klubları fəaliyyət göstərməkdədir. Təəssüflər olsun ki, hər bir gənc bu cür klublara maraq göstərmir. Yaxşı olardı ki, kitabxanalarda da intellektual klublar təşkil olunsun və vaxtaşırı həmin klubların yarışları təşkil olunsun. Bu kimi klubların kitabxanalarda da təşkili oxucularımızın intellektual səviyyələrinin yüksəldilməsinə yardımçı olar. Gənclərin fikir və düşüncələrini öyrənmək üçün onlar arasında müsahibənin keçirilməsi məqsədə uyğundur. Onu da deyək ki, müsahibə oxucuları öyrənməyin ən yaxşı üsullarındandır. Müsahibənin ali təhsil və orta məktəb kitabxanalarına müraciət edən tələbələr arasında keçirmək daha yaxşı olar.

Müasir dövrdə gənclərimizin əsas problemlərindən biri də ailə problemidir. Belə ki, ailə qurarkən gənclərimiz düzgün qərar verə bilmədikləri üçün sonradan müəyyən çətinliklər çəkirlər. Bəzi hallarda bu ailələrin dağılmasına gətirib çıxarır. Bu kimi halları aradan qaldırmaq üçün gənclər arasında maarifləndirmə işlərinin aparılması olduqca zəruridir. Bu kimi işlərlə lazimi təşkilatlar məşğul olsalar da, bir tərbiyyə müəssisəsi kimi kiabxanalara da bu istiqamətdə maarifləndirmə işləri həyata keçirilmək lazımdır. Kitabxanalarda gənclərimizi fəalyyətdə olan gənclər

təşkilatları haqqında məlumatlandırmaq lazımdır. Belə ki, hazırda ölkəmizdə 170 gənclər təşkilatı fəaliyyət göstərməkdədir. Belə təşkilatlardan biri olan ***“Stimul”*** Gənclər Təşkilatı isə uşaq evlərinə getməyi, müstəqil fikirləri yaymağı üstün tutur. ***“Sağlam Düşüncə”*** və ***“İrəli”*** adlı Gənclər Təşkilatı da maariflənməyə üstünlük verir. Bəli biz kitabxanaçılar düşünürük ki, gənclərimiz vaxtlarını səmərəli keçirərlərsə, pis vərdişlərdən də kənar olarlar.

Yeniyetmələr bir çox hallarda problemini çözmək üçün içki, siqareti çıxış yolu seçirlər.Bunun qarşısını almaq üçün kitabxanada ***"Öz həyatını zəhərləmə, yaşamaq üçün hə de”, “Həyatını məhv etmə”, “Həyatı sev və insan kimi yaşa”, “Mütaliə edək”*** kimi şüarların yer aldığı slayd-şou hazırlamaq, narkomaniya bəlasının yaranması, yayılması və dəhşətli nəticələri əks etdirmək olar.Tədbirə Bakı Şəhər Narkoloji Dispanserin həkimlərini də dəvət etmək olar. Tədbir zamanı uşaqlar erkən yaşlarında narkotik aludəçisi olaraq AİDS-ə yoluxan gənclərdən alınan müsahibələrlə də tanış ola bilərlər. Sonda məktəblilər arasında mövzu ilə bağlı sual-cavab yarışı keçirmək olar. Yaxşı olar ki, mövzunu daha yaxşı anlayan və onu ifadə edənlərə kitabxana tərəfindən hədiyyələr təqdim olunsun. Narkomaniyaya qarşı mübarizə üsullarından biri də, kitabxanalarımızda gənclərimizin xüsusi maraq və meyillərinin aşkar edilməsini nəzərdə tutan müəyyən tədbirlər təşkil etməkdir. Həmin tədbirlər aşağıdakı problemləri əhatə etməlidir:

1. Gənclərin təşəbbüslərinin dəstəklənməsi;
2. Gənclərin asudə vaxtının səmərəli təşkil olunması;
3. Gənclərə vətənpərvəlik hissinin aşılanması;
4. Gənclərin sağlamlığının qorunması məqsədilə onların zərərli vərdişlərdən uzaqlaşdırılması üçün tədbirlərin görülməsi;
5. Yaradıcı gənclərin üzə çıxardılması;

Müasir dövrdə kitabxanalarda gənclərin bir sıra problemlərinin aradan qaldırılması üçün müvafiq tədbirlər görülməlidir. Belə ki, bir sıra problemlərlə əlaqədar kitabxanalarımızda aksiyaların, gənclərlə görüşlərin və müəyyən tədbir planlarının həyata keçirilməsi məqsədə müvafiq olardı:

1. Müəyyən səbəblərdən gənclərin təhsildən yayınmasının qarşısını almaq və onlarda təhsilə maraq artırmaq məqsədilə onlarla görüşlərin keçirilməsi.
2. Qaçqın və məcburi köçkün gənclər üçün müasir informasiya kommunikasiya texnologiyalarına həsr olunmuş təlim proqramının təşkili və internet aksiyalarının keçirilməsi.
3. Gənclərin sağlamlığının qorunması və onlar arasında AİDS-in törətdiyi fəsadlar haqqında geniş maarifçilik işi aparmaq.
4. Gənclərimizi ziyanlı vərdişlərdən (narkotik, alkoqol, popiros) yayındırmaq məqsədilə aksiyaların təşkili.

5. Gənclərin mütaliəsinin düzgün istiqamətləndirilməsi məqsədilə kitabxanalarda xüsusi proqramların təşkil edilməsi, informasiya və məsləhət xidmətinin həyata keçirilməsi.

Gənclər arasında narkomaniyaya qarşı mübarizə mövzusunda maarifləndirmək üçün, kitabxanaçılar onları aşağıdakı müəyyən qruplara ayıraraq öz işlərini istiqamətləndirə bilərlər. Bu məqsədlə yüksək intellektli və yaradıcılıq qabiliyyətli gəncləri aşkarlayıb onlarla iş aparmaq olar.Xüsusi qabiliyyətli gənclərin əsas fərqləndirici xüsusiyyəti ondadır ki, onların düşünmə tərzi heç kimə oxşar olmayan, qeyri-standart və orijinal olur. Xüsusi qabiliyyətli gənclər, bir qayda olaraq, güclü yumor hissi ilə də fərqlənir və geniş müşahidə qabiliyyətinə malik olurlar. Bunu nəzərə alaraq kitabxanaların nəzdində gənclər üçün ***"Şən və hazırcavablar"*** klubu təşkil etmək olar. Gənclərimizin intellektual səviyyələrinin yüksəldilməsi, onların dünyagörüşünün artırılması əsas məsələlərdən biridir.Əgər onların intelektual səviyyəsi yüksək olarsa, pis vərdişlərdən kənar gəzərlər.

Gənc oxucularımızın ideya və maraqlarını öyrənmək məqsədilə dəyirmi masanın keçirilməsi məqsədə uyğundur. Gənclərin həyatının yaxşılaşdırılmasında mühüm rolu olan gənclər təşkilatlarının nümayəndələri tədbirə dəvət olunur. Tədbir zamanı gənclər və təşkilat nümayəndələri məruzə edirlər. Gənclərimizin öz ideyaları, gələcək planları barədə çıxışları dinlənilir. Hər bir gənci narahat edən problemlər dinlənildikdən sonra əlaqədar təşkilat üzvləri tərəfindən onların suallarına açıqlıq gətirilir.

***Oxucularla söhbət***

*Kitabxanaçı narkomaniyadan bəhs edən sərgi təşkil edir, slayd hazırlayır. Oxuculara bu haqda məlumat verir. Söhbət zamanı kitabxanaçı "Tibb qəzeti", "Ailə həkimi" jurnalındakı məlumatlardan da istifadə edə bilər.*

***Kitabxanaçı:*** İnsanlar dost qazanmağa hələ gənc yaşlarından vərdiş etməlidirlər. Çünki bu yaşda olan gənclərin həyatda düzgün istiqamət seçmələri üçün seçdikləri dostların rolu böyükdür. Yalnış dost seçimi gəncləri pis vərdişlərə sövq edə bilər. Kitabxana işçilərinin digər bir borcu da gəncləri ziyanlı vərdişlərdən uzaqlaşdırmaq, popiros, alkoqol, narkotikin ziyanlarından onları xəbərdar etməkdir. Demək olar ki, hamı narkotikin necə ziyanlı olduğunu bilir. Buna baxmayaraq onun toruna düşənlərin sayı çox sürətlə artır. Niyə? Çünki insanlar arasında maarifləndirmə aşağı səviyyədədir. Buna görə də narkotikin insanı və onun həyatını necə məhv etməsi barədə məlumat çox az insanda var. Bizim məqsədimiz bu təhlükəni gənclərimizə çatdırmaqdır. Bu məqsədlə kitabxana işçilərinin məktəblərdə gəncləri bu haqda maarifləndirmələri vacib şərtlərdəndir. Bu səbəbdən məktəblərdə gənclərlə bu



barədə maarifləndirici söhbətlərin aparılması istənilən nəticələri verər. Aşağıda qeyd etdiyimiz məlumatlardan istifadə edərək gəncləri məlumatlandırmaq olar.

**Narkotik** Narkotik ilk növbədə insanın sağlamlığına ziyan vurur. Narkomaniya orqanizmin zəifləməsinə, bədənin arıqlamasına və fiziki gücün zəifləməsinə gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların - qara ciyər və böyrəyin zəhərlənməsinə gətirib çıxarır. Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepatit və QIÇS-dir. Narkotikdən istifadə edənlərdə baş beyinin qabığı 7 dəqiqədən sonra ölməyə başlayır. Əlbəttdə bütün qabıq birdən ölmür, bu yavaş gedən prosesdir. Buna görə də bir çox narkoman yaşamaqda qalır. Amma onlar natamam insan olurlar. Elələri olur ki, hərəkət edə bilmirlər, heç bir reaksiya göstərmir, düşünmür. Onların beyni ancaq fizioloji prosesləri idarə edir. Məsələn, onları yedirtdikdə yeyir, əşyalardan istifadə edə bilmir, danışa bilmirlər. Narkotikin olmaması əsəbləşməyə və hirslənməyə gətirib çıxarır. Böyük narahatçılıq başlayır. Insan artıq bir işlə məşgul ola bilmir. Narkotikə aludə olan insan hər bir alçalmaya, iyrənc hərəkət eləməyə məcbur olur. Həmin insanın bütün maraqları, ümüdləri və qarşısına qoydugu məqsədləri getdikcə sönür.

**Siqaret**

Siqaretin tərkibi xərçəng xəstəliyi yaradan maddələrlə zəngindir. Onun təribində 3700-ə qədər zərərli maddə var. Və bu zərərli maddələr siqaretlə birgə alınan hər nəfəsdə insan orqanizmini zəhərləyir. Bunun nəticəsində ciddi xəstəliklər meydana gəlir. Dünyada hər 13 saniyədə bir insan siqaretlə bağlı xəstəliklərdən dünyasını dəyişir. Hər il dünya miqyasında 2 milyon yarım insan siqaretə görə ölür. Bu ölümlərin başlıca səbəbi isə ağciyər xərçəngidir. İkinci səbəb isə ürək xəstəlikləri və xərçəng xəstəliyidir. Insanlar olduqca ehtiyatlı olmalıdırlar. Çünki bu xəstəlik əsasən qanla yoluxur. Buna görə də hər kəs iynə vurdurarkən salonlara gedərkən ehtiyatlı olmalıdır.



**Alkoqol**

Alkoqol dildə, dodaqda, qırtlaqda xərçəng xəstəliyinin yaranmasına səbəb olur. O həm də ürək-damar xəstəklərinin törədicisidir. Spirtli içkinin insan orqanizminə olduqca böyük təsiri var: qaraciyər, mədə-bağırsaq, baş beyin, ürək alkoqoldan istifadə zamanı ən çox zədələnən orqanlardır. Bildiyimiz kimi, mədə və bağırsaqlarda qidanı həzm etmək üçün fermentlər ifraz edən xüsusi vəzlər yerləşir. Alkoqol bu vəzləri qıcıqlandırdığı halda fermentlər qidanı həzm etmək xüsusiyyətini itirir. Digər tərəfdən alkoqol mədənin hərəkət aktivliyini gücləndirir. Nəticədə qida kifayət qədər həzm olunmayaraq mədəni tərk edir. Gələcək ana spirtli içki qəbul

etməklə öz övladını hələ dünyaya gəlməmişdən zəhərləyir, nəticədə xəstə, əqli zəif uşaq dünyaya gəlir.
Gənclərin sağlamlığını təhlükə qarşısında qoyan əsas xəstəliklərdən biri AİDS xəstəliyidir ki, bu barədə gənc oxucuların maarifləndirlməsi olduqca vacibdir. Bu məqsədlə xüsusən məktəblərdə kitabxanaçı tərəfindən maarifləndirici söhbətlərin aparılması yaxşı nəticələr doğurar. Kitabxanaçının maarifləndirici çıxışında aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

**AİDS**

AIDS xəstəliyi QİÇS, SPİD adları ilə də tanınır. HİV insanın immunçatışmazlığı virusudur. Bu viruslar insan orqanizminin CD4 adlanan hüceyrələrini məhv edir. HİV-ə yoluxmuş insanlarda müdafiə sistemi zəiflədiyinə görə onlar bir çox xəstəliklərə asanlıqla tutulurlar. Bu xəstəliklər ölümlə nəticələnir. Virus daşıyıcısı tamamilə sağlam görünə bilər. QİÇS-ə yoluxmuş insan yoluxduğundan xəbərsiz ola bilər. Bu xəstəlik əsasən qanla yoluxur və hər kəs iynə vurdurarkən, salonlara gedərkən ehtiyatlı olmalıdır.

Gənclər, onu da bilməlidir ki, Respublikamızda QİÇS-lə mübarizə mərkəzi fəaliyyət göstərir. Mərkəzin qaynar xətti (494 99 24) hər zaman insanların müraciəti üçün açıqdır. Eyni zamanda mərkəzin saytı (www.AIDS.az) da fəaliyyət göstəriri ki, bura daxil olaraq sizi maraqlandıran sualları buradan da əldə edə bilərsiniz. Hətta həmin mərkəzin əməkdaşları ilə gənclərin görüşünün təşkili də mümkündür. Hər bir gənc gün ərzində öz öhdəsinə düşən işləri görməklə yanaşı düzgün istirahət etməyi də bacarmalıdır. Lakin gənclərimiz istirahət rejimlərini düzgünmü qururlar? Əyləncə anlayışını hər kəs eyni mənada qəbul etmir. Gənclərimizin çoxu istirahəti kitab oxuyub, mütailə etməkdə, musiqi dinləməkdə televizora baxmaqda görürsə, böyük bir qismi isə əyləncəni dostlar ətrafında hansısa istirahət mərkəzində dincəlməkdə görür. Bir sözlə hər bir gəncin öz maraq dairəsinə uyğun əyləncə tərzi var. İnsan vaxtını həm iş üçün, həm də istirahət üçün düzgün bölüşdürməyi bacarmalıdır. Düzgün işləyə bilməyən adam düzgün istirahət etməyi də bacarmaz. Beləcə də imuniteti zəifləyə bilər. Bununla əlaqədar kiabxana işçiləri tərəfindən gənclərimizin düzgün asudə vaxtının düzgün istiqamətləndirilməsi vacibdir. Ancaq onu da qeyd edək ki, kitab oxumaq istirahət etməyin ən yaxşı üsuludur. Britaniyalı psixoloqlar bəyan etmişlər ki, kitab oxumaq başqa üsullarla müqayisədə sakitləşməyə tez bir zamanda kömək edir. Cəmi 6 dəqiqə kitab oxumaq stressin səviyyəsini ikidə üç dəfə endirir. Kitab oxumaq fikri cəmləşdirməyə, ədəbiyyat aləminə daxil olmağa və problemlərdən yayınmağa kömək edir. Kitabxanaçıların bu mühüm vərdişi gənclərə sevdirməsi olduqca vacib amillərdən biridir.

***Mütaliə*** insan xarakterini formalaşdırıb, gənclərimizə bir sıra müsbət keyfiyyətlər aşılayır. Bu səbəbdən kitabxanaçılar gənclərdə mütaliəyə həvəs

oyatmaq məqsədilə öz işlərini planlı şəkildə qurmalıdıdrlar. Nəzərə alsaq ki, XXI əsr komputer-informasiya əsridir. Mütaliəni gənclərə sevdirməyin, gənclərlə daim ünsiyyətdə olmağın ən yeni üsullarından biri də internetin geniş imkanlarından istifadə etməkdir. Çünki son dövrlərdə internetdən istifadə etməyən gənc az tapılar. Bunun üçün kitabxanaların internet səhifələrinin fəaliyyət göstərməsi əlbəttə ki, yaxşıdır. Ancaq onu da nəzərə almaq lazımdır ki, iqtisadi çətinliklər hər kitabxanaya bu imkanı vermir. Ancaq sadə üsullarla da gənclərlə əlaqə saxlamaq olar. Bilirik ki, internetdə Tvitter, Facebook kimi məşhur sosial şəbəkələr fəaliyyət göstərir. Bu şəbəkələrdə kitabxanaların səhifələrini yaratmaq və səhifələri şəbəkə istifadəçilərinə təklif etmək olar. Həmin səhifədə kitabxananın şəkilləri, kitabxanaya yeni daxil olan kitabların üz qabıqları yerləşdirilə bilər. Bununla yanaşı gənclər səhifəni yaradan kitabxanaçı ilə söhbət edə bilər, öz problemləri və onları maraqlandıran kitablarla əlaqədar suallarını kitabxanaçıya ünvanlaya bilərlər. Bu həm də kitabxanaçıya gənc oxucuları kitabxanaya yeni daxil olan kitablarla yaxından tanış etmək imkanı verir. Internetdə bu kimi səhifələrin yaradılması həm də oxuculara vertual olaraq müəyyən əsər haqqında fikir mübadiləsi etməyə və müzakirələr aparmağa imkan verir. Gördüyümüz kimi internetin imkanlarından istifadə edərək kitabxana sahəsində mühüm naliyyətlər əldə etməyə imkan verir.

## Uşaqlar: Azərbaycanın bu günü və gələcəyi.

Uşaq hüquqlarının müdafiəsi problemi həmişə ictimaiyyəti maraqlandıran bir məsələ olmuşdur. Dünyanın bir sıra ölkələrində bu məsələ ilə ciddi məşğul olunur. Azərbaycanda da  uşaq hüquqlarının müdafiəsi ilə bağlı mühüm addımlar atılmış, bir sıra qərar və qanunlar qəbul edilmişdir. Ictimaiyyəti bu cəhətdən maarifləndirmək, onları öz hüquqları barədə məlumatlandırmaq kitabxanaların üzərinə düşən mühüm vəzifələrdən biridir. Bu sahədə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının xidmətləri əvəzsizdir. Belə ki, kitabxanamızda keçirilən bir sıra tədbirlər uşaqların, yeniyetmələrin, hətta valideynlərin hüquqi cəhətdən maariflənməsinə kömək edir.

Kitabxanalarda  kiçik yaşlı uşaqlar üçün keçirilən  tədbirlərdən biri "Ucadan oxu"dur. Bu tədbir hər zaman oxucularda böyük maraq doğurur. Cəlil Məmmədquluzadənin uşaq hüquqlarından bəhs edən ***"Qız tərbiyəsi", "Uşaq teatrı"*** əsərlərinin ucadan oxunması oxucular üçün maraqlı ola bilər. Bildiyimiz kimi bu əsərlərdə qeyd olunan uşaq hüquqları ilə bağlı problemlər müasir dövrlə də ayaqlaşır.

Uşaqların öz hüquqlarını yaxşı öyrənmələrinə nail olmaq üçün məktəblilər arasında ***"Mən öz hüquqlarımı yaxşı bilirəm"*** mövzusunda inşa müsabiqəsinin keçirilməsi yaxşı nəticələr verə bilər. Mövzunu işləyərkən uşaqlar müvafiq ədəbiyyatı oxumalı, internetdən lazımi informasiyanı almış olacaqlar. Bu da istər-

istəməz onların öz hüquqları ilə bağlı məlumatlanmasına səbəb olacaq. Nəticələr yoxlanıldıqdan sonra ilk üç yerin sahibi mükafatlandırılarsa bu uşaqların öz hüquqlarını öyrənmək həvəsini daha da artırar. Eyni adda rəsm müsabiqəsinin keçirilməsi də yaxşı nəticələr verər.

Məktəblərdə valideynlərlə görüşün təşkil edilməsi də bu sahədə böyük irəliləyişlərə səbəb olar. Respublika Konstitusiyasının tələblərinə müvafiq olaraq valideynlər uşaqların və onların fiziki əqli inkişafının qayğısına qalmağa və onları vətənin laiqli vətəndaşı kimi böyütməyə borcludurlar. Valideynlər öz hüquq və vəzifələrini uşaqlarına aşılamalı və onları düzgün istiqamətləndirməlidirlər.

Gənclərdə maarifləndirməni gücləndirmək məqsədilə onların yazıçı və şairlərlə kitabxanalarda görüşünün təşkili yaxşı nəticələr verər. F. Köçərli adına kitabxana öz iş təcrübəsində bu metoddan geniş istifadə etməkdədir. Belə ki, bu cür görüşlər gənclərin savadını, dünyagörüşünü artırır, onları pis vərdişlərdən kənarlaşdırırlar. Bundan əlavə fikir mübadiləsinin aparılması gənclərə öz fikir və düşüncələrini daha yaxşı ifadə etməyə imkan verir. Bu da gələcəkdə azad fikirli cəmiyyətin formalaşmasında mühüm rol oynayar.

Gəncləri mütəmadi olaraq kitabxanaya yeni daxil olan kitablar barədə məlumatlandırmaq lazımdır. Bu məqsədlə müasir yazıçılarımızın kitablarından ibarət sərgilər təşkil etmək olar. Sərgidə ***N. Məmmədlinin "Bu bir oyundur", "Zəngulə", "Vicdan dustağı", Elxan Elatlının "Pəncərədə görünən kölgə", "Cəhənnəmdən gələn səs", "Xəyanət", "Bakıdan gələn xəfiyyə", "Qan ləkəsi", "İtmiş qızın axtarışı", " Yeddinci mərtəbədə qətl", Pərvizin "Yad dildə", Varisin "Sonuncu ölən ümidlər", "Bir ovuc torpaq" "Görünməyən izlər", Çingiz Abdullayevin "Onun qəlbinin üçdə bir hissəsi", "Veneranın ikinci dəfə həyata gəlməsi", "Kandaqordan agent", "Paralel həyat"*** kitabarını nümayiş etdirmək olar.

Kitabxanalarda gənclərimizi fəaliyyətdə olan gənclər təşkilatları haqqında məlumatlandırmaq lazımdır. Belə ki, hazırda ölkəmizdə 170 gənclər təşkilatı fəaliyyət göstərməkdədir. Bu təşkilatların fəaliyyətindən, gördükləri işlərdən gənc oxucuları xəbərdar etmək üçün həmin təşkilatların nümayəndələri ilə gəncləri görüşdürmək mümükündür. Beləcə gənclər onları maraqlandıran suallara cavab tapa bilərlər.

*Son dövrlərin yazıçılarını oxucularımıza sevdirmək məqsədilə onların əsərlərinin icmallarının keçirilməsi məqsədə uyğundur.* Icmalını keçirə biləcəyiniz əsərlərdən biri son dövrlərin sevilən yazıçısı ***Elxan Elatlının "Görünməyən izlər"*** kitabıdır. Yazıçı əsərlərini detektiv üslubda yazır. Əsərin əsas qəhrəmanı Qambay Qasımlıdır. Romanda Humayla onun tanışlığından bəhs edilir. Əsərdə bu günümüzün gəncliyi üçün olduqca əhəmiyyətlidir. Belə ki, yazıçı əsərdə narkotokin insan həyatını necə məhv etdiyini olduqca aydın şəkildə əks etdirir. Elə

bu səbəbdən də əsər gənclərimiz üçün əhəmiyyətə malikdir. Kitab 2010-cu ildə Bakıda "İdeal-print" nəşriyyatında çap olunmuş və oxucuların ixtiyarına verilmişdir.

Müasir dövr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən bir də Nüşabə Məmmədlidir. Yazıçının son nəşr olunan kitablarından biri ***"Vicdan dustağı"*** adlanır. Kitab 2010-cu ildə "Çinar-Çap" nəşriyyatı tərəfindən çap olunmuşdur. Kitabın icmalının təşkili gənc oxucularda ona qarşı maraq yaradır. Roman onu oxuyan hər bir gənci öz həyatını, atacağı addımları bir daha düşünməyə vadar edir. Belə ki, tərbiyəvi mövzuda yazılan əsər müasir gəncliyimiz üçün olduqca əhəmiyyətlidir. Əsər gənclərə bir sıra insani keyfiyyətləri aşılamaq cəhətdən olduqca əhəmiyyətlidir. Romanın əsas qəhrəmanı Səltənətdir. Onun həyatında baş verən çətinliklər gənclər üçün təhsilin nə qədər vacib olduğunu bir daha sübut edir. Yazıçı romanda erməni millətinə xas murdar xüsusiyyətləri böyük məharətlə təsvir etmişdir. Roman gənclərimizi mübariz olmağa, vətəni, ailəni sevməyə, təhsil almağa səsləyir. Əsər gənclərimiz üçün böyük tərbiyəvi əhəmiyyətə malikdir.

Məktəblilərlə "Siz öz hüquqlarınızı bilirsinizmi? " adlı disputun keçirilməsi yaxşı nəticələrə gətirib çıxarar. Belə ki, uşaqlarla bu haqda söhbətin aparılması onların öz hüquqları haqqında olan məlumatını artırar. Tədbirə hər hansı bir uşaq hüquqları təşkilatının nümayəndəsini dəvət edərək uşaqları maraqlandıran sualların cavablandırılmasına şərait yaratmaq da məqsədə uyğundur. Uşaqlarla onların hüquqlarından danışarkən slaydlardan istifadə olunması, onların öz hüquqlarını daha yaxşı başa düşmələrinə yardımçı olar. Ancaq uşaqlar bəzən öz fikirlərini səsləndirməkdən çəkinirlər. Bu problemi aradan qaldırmaq üçün uşaq hüquqları ilə bağlı saytlar da fəaliyyət göstərir. Bu saytlara misal olaraq
www.ombudsman.gov.az, www.humanrights-az.org, www.crlc.az,
www.ngoalliance.net, www unicef.org/azerbaijan,
www. osce.org və s. kimi saytları göstərmək olar.

Bildiyimiz kimi bir çox uşaq bəzi hallarda müdafiə oluna bilmədiyi üçün onların hüquqları pozulur. Bu məqsədlə kitabxanaçıların uşaqlara müəyyən məsləhətlər verməsi, onları bu cəhətdən maarifləndirmələri gələcəkdə müsbət nəticələr verə bilər.Uşaqların bəzi pis vərdişlərə (popiros çəkmək, spirtli içkilərdən istifadə) yiyələnməsi onların gələcək həyatını tamamilə məhv edə bilər. Bu məqsədlə kitabxanaçılar popiros, alkoqolun mənfi cəhətlərindən uşaqları məlumatlandırsalar bu uşaqların belə vərdişlərdən uzaq olmalarına kömək edər.

Narkomaniyaya qarşı mübarizə mövzusunda ***"Gəlin gələcəyimizi qoruyaq"*** başlığı altında tədbir gənclərimizin bu sahədə maariflənməsinə çox müsbət təsir edə bilər.

*Yuxarı sinif şagirdlərindən ibarət oxucular səhnəyə çıxırlar.Səhnədə Azərbaycan gəncliyindən,Narkomaniyaya qarşı mübarizə mövzusundan bəhs edən sərgilər təşkil olunur. Bu mövzuda slayd göstərilir.*

**I Aparıcı:** Azərbaycan gəncliyi müstəqil respublikamız üçün böyük nailiyyətlər qazanmaq iqtidarına malikdir. Bəs bu məqsədlərə çatmaq üçün biz gənclər nə etməliyik?

**II Aparıcı:** Bildiyimiz kimi inkişafa gedən yol ilk növbədə təhsildən keçir. Elə bu səbəbdən də hamınız təhsilinizə, savadınızı artırmağa xüsusi diqqətlə yanaşmalısınız. Dostlar, çalışın daima intellektual səviyyənizi, savadınızı inkişaf etdirin, pis vərdişlərdən kənar olun. Çünki vətənimizə laiqli bir vətəndaş kimi yetişmək üçün təhsil önəmli şərtlərdən biridir.

**I Aparıcı:** Dostlar, unutmayın ki, siz artıq cəmiyyətin yetkin üzvüsünüz. Hər addımı atmazdan öncə hərtərəfli düşünün, ziyanlı vərdişlərdən uzaq olmağa çalışın. Heç bilirsinizmi ki, bu kimi vərdişlər insanın gələcək həyatında necə dərin yaralar aça bilər? Elə bu səbəbdən də popiros çəkmək, içki içmək, narkotikdən istifadə etmək kimi pis vərdişlərdən uzaq olun. Buna nail olmaq üçünsə ilk növbədə ətrafınıza yaxşı dostlar toplayın.

**II Aparıcı:** Unutmayın ki, dostluq bütün hisslərin, bütün münasibətlərin ən ülvisi, ən əvəzolunmazı və ən önəmlisidir. Dostluq olmadan sevgi olmaz, dostluq olmadan heç bir münasibət baş tutmaz, dostluq olmadan inam, dəyər və səmimiyyət olmaz. Atalarımız əbəs yerə deməyiblər ki, "Dostunu mənə göstər sənə kim olduğunu deyim." Odur ki, özünüzə yaxşı dostlar qazanın və özünüz də yaxşı dost olmağa çalışın! Gəlin unutmayaq ki, dostluq təkcə insanların şəxsi münasibəti olmaqla qalmır, bu zamanla cəmiyyətdə münasibətlərin yaxşılaşmasına, qonşu dövlətlərlə əlaqələrin möhkəmləndirilməsinə gətirib çıxarır.

*(Oxucu: Elmir Gəncəlinin "Dostluq" şeirini söyləyir. )*

Bir gecə qələmi əlimə aldım
Düşündüm dostluqda səhv etmişəm mən ?
Ilk öncə yadıma mən səni saldım
Gördüm xoş xatirələri məhv etmişəm mən !

Yadimda qalmisan pis fikirlərlə
Hər zaman dostuna demisən yalan
Dar gündə sən məni vermisən ələ
Əsl dost dostuna can verər qurban

Heç kimə dost sözün demirəm indi
O qədər yalançı dostlar görmüşəm
Dost dedim çevrildim bir də gördüm ki,
Artıq üzü üstə yerə düşmüşəm...

**I Aparıcı:** Gənclər, siz hər zaman vətənimizin xidmətində durmalı, onun gələcək inkişafında yaxından iştirak etməlisiniz. Unutmayaq ki, vətənimizi yadellilərdən qorumaq kimi mühüm bir vəzifə də biz gənclərin üzərinə düşür. Belə ki, hər bir oğlan hərbi xidmətini yerinə yetirməklə vətən qarşısında öz borcunu yerinə yetirməlidir. Vətənə məhəbbət, anaya, xalqa, ailəyə olan məhəbbət deməkdir.Bunun üçün sağlam olmaq, sağlam ruhda böyümək lazımdır.

*(Oxucu Mirvarid Dilbazinin "Vətən oğulsuz olmasın" şeirini söyləyir. )*

İgid oğul istəyir
Vətən hər dar günündə
Şücaətlə dayansın
Mərdim düşmən önündə
Igid oğul, ər oğul
Vətənin şöhrətidir
Tədbirli rəhbər oğul
Xalqın səadətidir.
Gül üstə gül bitirir
Övladın fərliləri
Vətən tarixi olur
Elin hünərliləri.
Sizə uğurlu yollar
Şücaətli oğular
Vətənin qartalları!
Qədirbilən xalqımız
Bəzəyərək güllərlə
Keçdiymiz bu çətin,
Bu əzablı yolları!

**II Aparıcı:** Hər bir şəxs gələcəyini düşünərək yaşayır, çünki hər bir günün sabahı var. Müasir gənclərimiz həm öz, həm də ümumilikdə Azərbaycanımızın gələcəyi üçün daim çalışmalı, pis vərdişlərdən kənar durmalıdı. Gəlin vətənimizi göz bəbəyimiz kimi qoruyub onun keşiyinə duraq. Ulu öndərimiz Heydər Əliyevin və hörmətli prezidentimiz İlham

Əliyevin bizə olan etimadını doğruldaq. Azərbaycanımızı gündən-günə inkişaf etdirək.

**I Aparıcı:** Bu gün vətənimizin keşiyində duran bir çox gənclərimiz var. Hal-hazırda onların sayəsində torpaq üzərində rahat gəzirik. Bunun üçün onlara borcluyuq. Onlar ən müqəddəs borclarını yerinə yetirirlər. Vətənə olan borclarını! Biz hamımız pis vərdişlərdən əl çəkməli, Vətənimizin, xalqımızın etimadını doğrultmalıyıq. Məhz bu gənclər haqda Heydər Əliyev demişdir: "Orduda xidmət edən gənclər bizim dəyərli vətəndaşlarımızdır. Onların əksəriyyəti gənclərdir. Onlar vətəni qoruyurlar, düşmənlə üzbəüz mövqedə dayanırlar, Azərbaycanın müstəqilliyini qoruyur və möhkəmləndirirlər. Lazım gələn anda məhz onlar doğma torpaqlarının azad olunması üçün ilk addımı atacaqlar".

**II Aparıcı:** Vətənpərvərlik Vətənə, doğma torpağa, xalqa, onun dilinə, adət-ənənələrinə, mədəniyyətinə məhəbbət deməkdir. Əsl vətəndaş isə Vətənin içində gəzən yox, Vətənin özünü öz içində gəzdirəndir. Əsl Vətəndaş Vətəni ana qədər sevən, əzizləyən, qoruyandır. Gəlin, biz də əsl vətəndaş olmaq üçün Vətənimizi göz-bəbəyimiz kimi qoruyaq. Çünki, Vətən hər şeydən ucadır! Bunu hər bir kəs dərk etməli, zamanını səmərəli işlərə sərf etməli, pis vərdişlərdən kənar gəzməlidir. Onda yenilməz olarıq!

**Aparıcı:** Əziz oxucular. Bildiyimiz kimi "Xaş-xaşın göz yaşı" tamaşası Avropa Şurasının Pampidou Qrupu tərəfindən narkotiklərə qarşı mübarizədə gənclərin fəal iştirakı ilə həyata keçirilən innovativ layihə olaraq tanınıb və 80 layihə arasında ilk üçlüyə düşüb. Bu AİDS mövzusunda Azərbaycanda hazırlanmış ilk maarifləndirici teatr tamaşasıdır. Tamaşa Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin sifarişi ilə hazırlanıb. Maarifləndirmə funksiyasını yerinə yetirən tamaşa gənclərdə narkomaniyanın doğurduğu faciələr, AIDS və bir sıra başqa qorxunc xəstəliklərin yayılması yolları haqqında aydın təsəvvür yaradır.Çətin vəziyyətə düşmüş gənclərə cəmiyyətin yanlış münasibəti, ailə-məişət problemləri, yeniyetmələrin başa düşülmə və özünü təsdiq ehtiyacının ödənməməsi onları uçuruma yuvarladan amillər kimi nəzərdən keçrilir. Səhnə əsərində qoyulan problemlər bir qrup tələbə gəncin timsalında tamaşaçıya çatdırılır. Qarşılaşdıqları irili-xırdalı çətinliklərə tab gətirməyən gənclər asanlıqla "dərdlər unutduran" vasitəyə qurşanırlar. Valideynlərin yanlış münasibəti isə buna təkan verir. Narkomanlığın tarixi çox qədimdir, narkomaniya sərhəd tanımayan beynəlxalq problemə çevrilir. Avropa və Asiya qitələrində məskunlaşmış xalqların

mifalogiyasında, insanların ağrı və əzablarının qənimidir.İndi isə gəlin bəşəriyyəti düşündürən və narahat edən ən ağrılı problemlərdən biri, cəmiyyətin ciddi bəlasına xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniyaya həsr edilmiş Arzu Soltanın qələmə aldığı, İntiqam Soltanın quruluş verdiyi "Xaş-xaşın göz yaşları" adlı tamaşaya yuxarı sinif şagirdlərinin ifasında tamaşa edək.

## *Nəticə*

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar dövlətimizin bütün siyasətini dəstəkləyən aparıcı dövlət təşkilatı kimi kitabxanaların ölkəmizdə milli təhlükəsizliyin təmin olunmasında narkomanlığın, eləcə də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin qarşısının alınması və belə təzahürlərin aradan qaldırılması sahəsində həyata keçirdiyi tədbirlər mühüm yer tutur. F.Köçərli adına Respublika Uşaq kitabxanasının Məlumat-biblioqrafiya şöbəsi kitabxanada bu vəzifənin həyata keçirilməsinə kömək məqsədilə "Narkomaniya – Bəşəriyyətin faciəsi" adlı ədəbiyyat siyahısı hazırlamışdır. Ədəbiyyat siyahısında dövlət sənədləri, kitablar, bədii ədəbiyyat və dövri mətbuatda dərc olunan məqalələrin annotasiyalı təsvirləri verilmişdir. Şöbənin hazırladığı bu vəsait narkomanlığa qarşı mübarizəyə həsr olunmuş tədbirlərdə nümayiş etdirilmiş və oxuculara paylanmışdır. Bundan başqa şöbədə narkomaniyaya dair nəşr olunan dövlət sərəncamları paket şəklində toplanaraq qovluqda saxlanılır. Eyni zamanda bu siyahılar kitabxanada və məktəblərdə keçirilən tədbirlərin hazırlanıb həyata keçirilməsində kitabxanaçılara kömək etmək məqsədilə bütün Mərkəzi Kitabxana sistemlərinin uşaq şöbələrinə göndərilir. "Narkomaniya ilə mübarizə" mövzusu həmişə diqqət mərkəzində olmuşdur. Elmi metodika şöbəsi tərəfindən hazırlanmış "Gəlin, gələcəyimizi qoruyaq!" adlı metodik vəsaitdə yeniyetmələrin maariflənməsi məqsədilə müxtəlif tədbir formaları verilmiş, vəsaitin sonunda oxucular arasında keçirilən rəy sorğusunun sualları diqqətə çatdırılmışdır. Narkomaniya və narkobiznesə qarşı mübarizə mövzusunda yeniyetmə və gənc oxucular arasında (Bakı Modern məktəbi, 23 saylı orta məktəb və Uşaq və Gənclərin Sülh Şəbəkəsi Təşkilatı) treninq-mühazirələrin və interiaktiv oyunların keçirilməsi yeniyetmələrin maariflənməsində əsas rol oynamışdır. Xidmət şöbəsinin əməkdaşları kitabxananın oxu zalında yuxarı sinif şagirdləri ilə Çingiz Abdullayevin "Göy mələklər", "Qisasın ölçüsü", Elxan Elatlının "Görünməyən izlər", Elxan Xanəlizadənin "Zəncir", İsmayıl Qarayevin " Məni tanıdınmı?" kitablarının icmalını keçirmişdir. Tədbirdə oxucularda maraq oyatmaq məqsədilə "Zərərli vərdişlər və ondan törənən fəsadlar", "Bəşəriyyətin düçar olduğu bəla", "Narkomaniyanın genofondumuza gətirdiyi fəsadlar", "Narkomaniya və acınacaqlı həyat"

mövzusunda video çarxlar, elektron nəşrlər, fotolardan da istifadə edilmişdir. Mühazirədə yuxarı sinif şagirdləri, məktəbin müəllim və valideynləri iştirak etmişdir. Kütləvi işlər şöbəsi tərəfindən “Narkomaniyaya yox deyək!” adlı çarxlı slaydlar hazırlanmış, tədbirlərdə nümayiş olunmuşdur. Həmçinin Bakı Uşaq Teatrının repertuarında qoyulmuş “Həyatla oyun” tamaşasının video lentinə kitabxanada baxılmış və tamaşa-müzakirə edilmişdir. Tamaşada real həyatdan götürülmüş hadisələr əks olunub. Narkotik aludəsi olan bir qrup tələbənin faciəli həyatından bəhs edən tamaşada faciənin əsas səbəbi kimi gənc oğlanların uşaqlıqdan valideynləri tərəfindən düzgün başa düşülməməsi, bu haqda maarifləndirilməməsidir. Müzakirədə Bakı Uşaq Teatrının direktoru – bədii rəhbəri İntiqam Soltan çıxış edərək bildirdi ki, tamaşanın nümayişi gəncləri narkomaniya haqqında məlumatlandırmaq və eləcə də maarifləndirmək funksiyasını daşıyır. Gələcəyin valideynləri olan bu gənclərin narkomaniya və onun fəsadları haqqında maariflənməsi müasir dövrün ən vacib tələblərindəndir.

## Ədəbiyyat siyahısı


1. Abdullayev Ç. Göy mələklər. – B.: Çinar, 2009. – 328 s.
2. Abdullayev Ç. Qisasın ölçüsü. – B.: Çıraq, 2008. – 320 s.
3. Elatlı E. Görünməyən izlər : roman. – B.: İdeal-Print, 2010. – 320 s.
4. Xanəlizadə E. Zəncir : roman. – B.: Apostrof, 2013. – 264 s.
5. Qarayev İ. Məni tanıdınmı?: roman. – B.: Çinar-Çap, 2003. – 260 s.


### *DÖVRİ MƏTBUATDA*


1. Abbasov S. Bütün bəşəriyyəti düşündürən ən ciddi problemlərdən biri də narkomaniyadır / S. Abbasov // İki sahil. - 2014. - 8 noyabr. - № 203. - S. 30.
2. Abdullayeva F. Narkomaniya tibbi və sosial bəladır // Mədəniyyət. - 2008. - 24 iyul. - S.10.
3. Abdullayev Y. Narkomaniya əleyhinə mübarizə aparmaq başqa növ cinayətlərin qarşısını almaq deməkdir // İki sahil. - 2014. - 8 fevral. - № 23. - S. 15.
4. Abdullayev Z. Narkomaniya dünyəvi problemdir // Respublika. - 2009. - 7 avqust. - N 172. - S.4.
5. Abıyev S. Narkomaniyaya qarşı ümumxalq mübarizəsi aparılmalıdır // İki sahil. - 2013. - 14 sentyabr. - № 168. - S. 23.
6. Abiyev N. Narkomaniya - ümumbəşəri problem // İki sahil. - 2014. - 20 dekabr. - № 233. - S. 30.
7. Abıyev S. Narkotikaya qarşı mübarizəyə sən də qoşul! // İki sahil. - 2014.

- 13 sentyabr. - № 166. - S. 29.
8. Ağayev Y. Yeniyetmələr siqaret çəkirsə... : Narkomaniyaya yox deyək // Azərbaycan müəllimi. - 2006. - 23 iyun. - S.5.
9. Abıoğlu Ə. Narkomaniyaya qarşı mübarizə gücləndirilir // Palitra. - 2014. - 11 aprel. - № 61. - S. 12.
10. İkramqızı F. "Ağ ölümə" "YOX" deyək... : narkomaniya // İki sahil. - 2014. - 26 aprel. - № 72. - S. 27.

**Redaktor: F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova**

**Tərtib edənlər: F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi işlər üzrə direktor müavini Zahirə Dadaşova, Elmi-metodika şöbəsinin müdiri Məmmədli Ruhiyyə**